www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 4-5 iyul 2015-ci il Şənbə № 144 (6172) Qiyməti 40 qəpik

**Xəbər**

## Ziya Məmmədovun dili tutulan qardaşı ölkədən çıxarıldı

yazısı səh.2-də

**Gündəm**

### Bakıda 3 vəzifəli şəxs həbs olundu



Vergilər Nazirliyi "Bakılift-təmir"də total yoxlamaları yekunlaşdırıb; həbslər başladı

yazısı səh.5-də

### Leyla və Arif Yunusların məhkəməsinin vaxtı bilindi

yazısı səh.3-də

### Təhsil naziri fərdi təhsillə bağlı plan hazırlayıb

yazısı səh.6-da

### Azərbaycan-Qərb savaşında Rusiya amili - kim qazanacaq?

yazısı səh.8-də

### Mixail Sakaşvili Ukrayna oliqarxları ilə kəllə-kəlləyə gəlib

yazısı səh.9-da

### "Azadlıq 2015" bloku səfirliklərlə görüşlərə başlayacaq

yazısı səh.11-də

### "A.M.A.Y Abdulla"nın məhkəməsindəki müəmmalı fasilə bitmək bilmir

yazısı səh.10-da

### Bodrumda istirahət Nabrandan ucuz başa gəlir

yazısı səh.15-də

### Cavid Qurbanov bir neçə vəzifəli şəxsi işdən qovdu

yazısı səh.2-də

### Bank sistemi hələ özünə gələ bilmir

yazısı səh.12-də

**Ramazan ayının 17-ci günü**

İftar 21.31. İmsaq (azan) 4.46 (QMİ)

17-ci günün duası: "İlahi, bu gün məni yaxşı əməllərə yönəlt! Belə bir gündə mənim bütün arzu və ehtiyaclarımı ödə! Ey, izahlara ehtiyacı olmayan Allah! Ey, hamının qəlbində olanları bilən, salamın olsun Məhəmməd (s) və onun pak Əhli-beytinə (ə)!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

Sabah 1-ci Qədr gecəsidir.

## Qalmaqallı kredit işi ilə bağlı daha bir ilginc gəlişmə

# VƏZİROVUN YAXIN QOHUMU CAHANGİR HACIYEVLƏ MÜƏMMALI İŞ ORTAQLIĞINDA

"AST Telman"ın borca görə hotel ərazisini satdığı "Luazo Corporation" şirkətinin baş direktoru Zaur İsazadəni Beynəlxalq Bankın sabiq rəhbəri ilə nə birləşdirir?; Rusiya Hüquq Akademiyasının sıravi məzunu olan bir şəxsin biznes imperiyasının sirri...



yazısı səh.5-də

# Axtarışda olan "Hafka"nı "ip"dən aldılar

Borclu biznesmenlər haqda iki sensasion məlumat; Hafiz Məmmədovu bobsley həvəskarı olan Monako knyazı Alberlə nə birləşdirir?; Hacı İbrahim "Xəzər Adaları"nın borca görə əlindən alınması xəbərindən danışdı

yazısı səh.4-də



*Əlövsət Əliyev:*

### "Buyursunlar məni qanuni əsaslarla Almaniyadan tələb etsinlər"

yazısı səh.3-də



### Səfirləri işdən qovan azərbaycanlı biznesmen - Fərhad Əhmədov

yazısı səh.10-da



*Rauf Arifoğlu:*

### ""Azadlıq" hakimiyyətdən aldığı 307 min manat pulu, iki evi, əməkdar jurnalist adını qaytaracaqmı..."

yazısı səh.6-da

YENİ MÜSAVAT
N 144 (6172) 4 iyul 2015



## Prezident yol tikintisinə 1.5 milyon manat ayırdı

**Prezident İlham Əliyev Füzuli rayonunun Birinci və On birinci Qayıdış qəsəbələrarası avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, on iki min nəfər əhalinin yaşadığı 11 yaşayış məntəqəsini birləşdirən Birinci və On birinci Qayıdış qəsəbələrarası avtomobil yolunun tikintisinin davam etdirilməsi məqsədi ilə 2015-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə kəndlərarası avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 1,5 milyon (bir milyon beş yüz min) manatı Füzuli Rayon İcra Hakimiyyətinə ayrılsın.

Eyni zamanda, Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

## Cavid Qurbanov bir neçə vəzifəli şəxsi işdən qovdu

**"Azərbaycan Dəmir Yolları"nda bir sıra problemlər də mövcuddur. Bir çox məsul işçilər onlara tapşırılan işin məsuliyyətini dərk etmirlər. Bununla əlaqədar struktur islahatlarının aparılmasına ciddi ehtiyac yaranıb". Bunu bu gün "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətində (QSC) keçirilən geniş kollegiya iclasında "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov deyib.**

Geniş kollegiya iclasında bir neçə idarə və stansiya rəhbəri işdə yol verdiyi ciddi nöqsanlara görə tutduğu vəzifədən azad edilib.

C.Qurbanov iclasda dəmiryolda reallaşdırılan layihələr, qarşıda duran perspektiv vəzifələr haqqında ətraflı məlumat verib.

O bildirib ki, ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə yaradılmış nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi və modernləşdirilməsi prosesi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən daha intensiv şəkildə aparılır: "Hazırda dəmiryolda bir sıra yeni layihələr icra olunur. Bu nəhəng qurumun infrastrukturunun yeniləşdirilməsi, xidmətin səviyyəsinin daha da yüksəldilməsi istiqamətində bütün qüvvələr səfərbər olunub".

## Xədicə İsmayılın araşdırmaları radionun saytından çıxarıldı?

**Azadlıq Radiosunun saytında dünəndən müşahidə edilən ilginc yenilik var. Bu, saytda "Xədicə İsmayılın araşdırmaları" başlıqlı bir bölümün artıq saytdan çıxarılmasıdır. Daha öncə saytı açan kimi ortada, iri bir başlıqla gözə çarpan bu bölüm artıq yoxdur. X.İsmayılın istintaqının yekunlaşdığı, yaxın günlərdə məhkəməsinin başlanacağı bu günlərdə radionun bu addımının səbəbi sual doğurdu.**

Radiodan aldığımız məlumata görə, X.İsmayılın yazıları saytdan çıxarılmayıb, sadəcə saytda dizayn dəyişikliyi edilib. Digər yazılara yer açılması üçün həmin bölüm saytın çox böyük yer tutan hissəsindən çıxarılıb. Amma yazılar yenə də arxivdə, araşdırmalar hissəsində yer alır. Arzulayanlar bu yazılarla saytın araşdırma bölümündə tanış ola bilərlər.

❑ SEVİNC

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Ziya Məmmədovun dili tutulan qardaşı ölkədən çıxarıldı

**İyunun 30-da Qusar rayonunun Çiləgir kəndində qudası Ramiz Vəliyevin gözləri qarşısında öldürülməsi nəticəsində nəqliyyat naziri Ziya Məmmədovun qardaşı, Nəriman Məmmədovun dili tutulub.**



Anspress xəbər verir ki, villasındakı faciədən sonra Nəriman Məmmədova ilk tibbi yardım Qusar rayon mərkəzi xəstəxanasında göstərilib. Bunda sonra paytaxt həkimləri də nazirin qardaşına köməklik edə bilməyiblər. Şokdan çıxa bilməyən N.Məmmədov müalicə üçün Türkiyəyə aparılıb.

Qeyd edək ki, Ramiz Vəliyevi öldürən 1967-ci il təvəllüdlü Eynulla Cahangir oğlu Hacıyev hadisə yerindən qaçsa da Qusar rayon prokurorluğu əməkdaşlarının apardığı əməliyyat-axtarış tədbirləri nəticəsində onu elə həmin gecə həbs edilib.

Rayon sakinlərinin verdiyi məlumata görə, Nəriman Məmmədovun villasında daha əvvəllər qətli törədən şəxsin qardaşı gözətçi işləyib. Lakin bir il əvvəl gözətçi Şəkixan Hacıyevin evində partlayış baş verdiyi üçün özü və həyat yoldaşı Maral Hacıyeva dünyasını dəyişib. Partlayışda dünyasını dəyişən ailənin oğlu 1992-ci ildə Qarabağda gedən müharibələrdə şəhid olub. Onların ölümündən sonra Eynulla Hacıyev bu işə təyin edilib.

Qusar rayon icra hakimiyyəti başçısının Urva inzibati ərazi vahidliyinin nümayəndəsi Sülhəddin İsgəndərovun verdiyi məlumata görə, Eynulla Hacıyev içki düşkünü olub və ailəsi ilə bu səbəbdən tez-tez mübahisə yaşanıb. Onun bacısı isə evin qulluqçusudur. S.Kərimov onu da qeyd edib ki, bu qətlin qısqanclıq zəminində baş verdiyinə inanmır.

Saytın yazdığına görə, əslində Eynulla Hacıyev evin sahibi olan nazirin qardaşını öldürmək istəyib. Lakin səhvən onun qudası Ramiz Hacıyevi öldürüb. Buna səbəb isə evin qulluqçusu ilə yaxınlıq münasibəti olub və qətl də məhz bu səbəbdən namus üstündə törədilib.

Qusar rayon prokurorunun köməkçisi Anar Salehov faktı təsdiqləsə də istintaq davam etdiyi üçün əlavə heç bir məlumat verməyib. Onun sözlərinə görə, faktla bağlı Qusar Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120-ci maddəsi (qəsdən adam öldürmə) ilə cinayət işi qaldırılıb. Lazımi məlumatlar istintaq başa çatdıqdan sonra veriləcək.



## Rusiya səfiri Milli Şura rəhbərliyi ilə nədən danışıb?

**İyulun 2-də, ABŞ-ın Müstəqillik Bəyannaməsini imzaladığı günlə əlaqədar bu ölkənin Azərbaycandakı səfirliyində keçirilən qəbul zamanı maraqlı anlar yaşanıb. Belə ki, Rusiyanın Azərbaycandakı səfiri Vladimir Doroxin tədbirdə iştirak edən Milli Şuranın rəhbərliyinə yaxınlaşıb və onlarla salamlaşıb.**

Milli Şuranın sədri Cəmil Həsənli, AXCP sədri Əli Kərimli, qurumun üzvləri Gültəkin Hacıbəyli ilə səmimi atmosferdə davam edən söhbət bir müddət davam edib. Qeyd edək ki, Milli Şura üzvlərinin masası tədbirə qatılmış Müsavat rəhbərliyinin dayandığı yerin bir neçə addımlığında olub. Lakin Şura üzvləri kimi, Doroxin də Müsavat rəhbərliyi ilə hər hansı təmasda olmayıb. Rus səfirin Milli Şura üzvləri ilə nələrdən danışdığı bəlli olmasa da, onların təması xeyli diqqət çəkib. Xüsusilə də Milli Şuranın Rusiya proyekti olması barədə informasiyaların aylardır yayılması və müzakirələrin yenidən qızışması fonunda Dorosini bu qurumun rəhbər şəxslərinin yanına gətirən səbəblər maraq doğurur.

Milli Şuranın rəhbərliyi "Yeni Müsavat"a embarqo qoyduğundan onlardan hər hansı münasibət öyrənməyimiz mümkün olmadı.

❑ M.HÜSEYNLİ

TRANSPARENCY INTERNATIONAL

## "Transparency İnternational": "Azərbaycanda mətbuata və QHT-lərə təzyiqlər artıb..."

**"Transparency İnternational" təşkilatı özünün yeni hesabatında Şərqi Avropanın 5 ölkəsində korrupsiya ilə mübarizədə tərəqqi olmaması və demokratik proseslərə və Avropa Birliyi ilə əlaqələrin perspektivinə təhlükələr haqda xəbərdarlıq edib.**

Musavat.com-un xarici qaynağa istinadən verdiyi xəbərə görə, məruzədə Ermənistan, Azərbaycan, Gürcüstan, Moldova və Ukraynada korrupsiyaya qarşı mübarizəyə cavabdeh olan onlarla idarənin fəaliyyətinin araşdırıldığı qeyd olunur.

Bildirilir ki, yaxın 5 ildə Avropa Birliyi bu ölkələrə maliyyə köməyi qismində 16,6 milyard ayırmaq niyyətindədir. Lakin sənəd müəllifləri ehtiyat edirlər ki, bu vəsaitlər korrupsionerlərin cibinə axa bilər. Hesabatda qeyd edilir ki, qəbul edilən qanunlara rəğmən, bu ölkələrin siyasi elitası və biznes elitası hakimiyyətin məhkəmə və qanunverici qollarına böyük təsir gücünə malikdir ki, bu da korrupsiyaya kömək edir.

Ekspertin qənaətincə, siyasi motivli məhkəmə təqiblərinin və məhkəmə proseduralarından yan ötmək üçün hökumətə müdaxilə olunması problemi xüsusilə Ukrayna və Moldovada kəskin şəkildə durur.

"Regionda mülki nəzarəti həyata keçirən KİV-lərə və QHT-lərə Ermənistan və Azərbaycanda qorxutmaq, sıxışdırmaq, təqib, fəalların və jurnalistlərin həbsi yolu ilə təzyiqlər artıb" - sənəddə vurğulanır.

## Bakı Apelyasiya Məhkəməsi iki nəfəri azadlığa buraxdı

**Bakı Apelyasiya Məhkəməsində iki nəfər azadlığa buraxılıb. Bu barədə virtualaz.org saytına vəkil Ceyhun Yusifov məlumat verib.**

Vəkilin sözlərinə görə, dələduzluqda ittiham olunan Yusif Əmrahov və narkotik vasitələrin qanunsuz dövriyyəsində təqsirləndirilən Ruslan Ocaqquliyev barəsində həbs-qətimkan tədbiri dəyişdirilib: "Bir gündə iki qətimkan tədbirindən verilmiş ayrı-ayrı apelyasiya şikayətləri təmin olunaraq iki ayrı cinayət işində (Cinayət Məcəlləsinin 178.3.2 və 234.1-ci maddələri ilə təqsirləndirilirdilər) barəsində həbs-qətimkan tədbiri seçilmiş iki şəxs azadlığa buraxılıb".

Qeyd edək ki, hər iki şəxs barəsində 3 aylıq həbs-qətimkan tədbiri dəyişdirilib və polisin nəzarətinə verilmə qətimkan tədbiri seçilib.

Vəkil bunu ədalətin təntənəsi adlandırıb. O, həmçinin Bakı Apelyasiya Məhkəməsinin hakimləri Camal Ramazanova və Səvxan Mirzəyevə təşəkkür edib.



## Mir Camal Paşayev "PAŞA Bank"ın sədri seçildi

**"PAŞA Bank" ASC-nin Müşahidə Şurasına yeni sədr təyin olunub. Bu vəzifəyə Mir Camal Paşayev təyin olunub. Ondan öncə bu vəzifəni Ağa-Əli Kamalov tutub.**

Müşahidə Şurasında daha bir dəyişiklik ondan ibarətdir ki, Arif Paşayev Şuranın üzvlüyündən çıxarılıb.

Hazırda bankın Müşahidə Şurasının üzvləri bunlardadır: Fərid Axundov, Vadim Şneyer, Nəriman Sərdarlı, Kəmalə Nuriyeva.

İdarə Heyətinin sədri Taleh Kazımovdur. İdarə Heyətinin üzvləri Emil Hacıyev, Şirin Əliyeva və Aydın Atakişiyevdir.

Bankın səhmdarları iki hüquqi şəxs: "PAŞA Holding Ltd." (60%), "Ador Ltd." (30%) və bir fiziki şəxs: Arif Paşayevdir (10%) (APA).

## "250 jurnalistin adını Prezident Administrasiyasına göndərmişik"

**"250-yə yaxın jurnalistin namizədliyini Prezident Administrasiyasına göndərmişik". Strateq.az bildirir ki, bu barədə Mətbuat Şurasının sədri Əflatun Amaşov bildirib. MŞ sədri bildirib ki, iyulun 20-də Azərbaycan jurnalistikasının inkişafında rolu olan, töhfə verən insanlar mükafat alacaq.**

Ə.Amaşov Milli Mətbuat günü ilə əlaqədar Azərbaycan jurnalistikasında önəmli rolu olan jurnalistlərin mükafatlandırılacağını qeyd edib: "Əsasən daha çox xidmət göstərmiş insanlar, jurnalistlər mükafatlanacaq".

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33

YENİ MÜSAVAT
N 144 (6172) 4 iyul 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# “Buyursunlar, məni qanuni əsaslarla Almaniyadan tələb etsinlər”

## Əlövsət Əliyev məhkəmədə barəsində səslənən iddialara münasibət bildirdi: “Namiq Camalov o ifadəni təzyiq altında verib”

**Məlum olduğu kimi, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Əfqan Hacıyevin sədrliyi ilə Azərbaycan Miqrasiya Mərkəzinin rəhbəri Əlövsət Əliyev və digərlərinin cinayət işi üzrə məhkəmə prosesi keçirilib. Təqsirləndirilən şəxslər Cinayət Məcəlləsinin 177.3.2 (oğurluq), 320.1 (rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma, qanunsuz hazırlanma, satma və ya saxta sənədlərdən istifadə etmə) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz keçmə) maddələri ilə ittiham olunurlar.**

Prosesdə ifadə verən təqsirləndirilən şəxslər özlərini qismən təqsirli biliblər. Belə ki, onlar özlərini oğurluq ittihamı üzrə təqsirli bilmədiklərini, saxta sənəd hazırlamaqla bağlı isə təqsirli bildiklərini deyiblər. Təqsirləndirilən Namiq Camalov ifadəsində bildirib ki, keçmiş polis işçisi olub, Əlövsət Əliyevi 2008-ci ildən tanıyır və Gülnarə Şəkinskayanı da onun vasitəsilə tanıyıb: “Əlövsət Əliyev onu mənə bacısı qızı kimi təqdim edib, adının Aysel Əliyeva olduğunu deyib. Pul müqabilində ona sürücülük etməyi tapşırdı. Bildirildi ki, evi plana düşüb, ona görə rayona qeydiyyata düşməlidir. Bu səbəbdən də bir neçə dəfə Bərdəyə gedib-gəlmişik. Şəfiqə *(digər təqsirləndirilən Şəfiqə Bağırova -R.V.)* də onun yanında olub. Gülnarə həmişə hicabda olurdu”.

N.Camalovun sözlərinə görə, Gülnarə ilə Şəfiqəni Bərdədə Pənah Dadaşovla Saçlı Həsənova qarşılayıb və polis şöbəsinə giriblər. Gülnarə Şəkinskayanın sənədində Əliyeva Aysel Müzəffər qızı yazıldığını deyən təqsirləndirilən bildirib ki, ona sürücülük üçün maaşı Ə.Əliyev verib. Bildirib ki, aylıq 600-700 manat danışılsa da, bir neçə dəfə Bərdəyə getdiyi üçün 1500 manat ödənib. N.Camalov əlavə edib ki, Gülnarə sərhədi keçən zaman təqsirləndirilən şəxslər də yanında olub. Belə ki, Gülnarənin uşaqlarının hərəsi təqsirləndirilənlərdən birinin adına sənədləşdirilib.

**N.Camalov oğurluq ittihamını isə qətiyyətlə rədd edib:** “Gülnarənin evi Bayraq Meydanının yerində yerləşib və boş olub. O evdə nəinki pul, heç uşaqların ayaqqabıları da olmayıb. Deyirdi ki, ”ev mənə atamdan qalıb". Heç bir oğurluq olmayıb. Bu işlə bağlı çox sayda adam tutublar. 1 il 3 aydır həbsdəyəm. Bizi tutanda dedilər ki, narkotiklə də ittiham veriləcək. Sonradan oğurluqla bağlı ittiham verildi. İstintaqda təzyiq altında qol çəkmişəm".

Daha sonra ifadə verən təqsirləndirilən Pənah Dadaşov bildirib ki, Şəfiqə Bağırovanı Ramiz adlı tanışı vasitəsilə tanıyıb. Əlavə edib ki, Şəfiqə Bağırovanın istəyi ilə Saçlı Həsənovaya 300 manat verib. S.Həsənova isə ona dünyasını dəyişmiş öz uşağının doğum şəhadətnaməsini verib. Həmin doğum şəhadətnaməsi ilə isə Gülnarə Şəkinskayanın övladına pasport alınıb.

Təqsirləndirilən şəxs qismində ifadə verən Saçlı Həsənova Pənah Dadaşovu yalan danışmaqda ittiham edib. O bildirib ki, Pənahın ona 500 manat borcu olub, həmin



borcdan 300 manatını qaytarıb. O, 1 yaşında dünyasını dəyişmiş övladının doğum şəhadətnaməsini verdiyini təsdiqləyib. Qeyd edib ki, ona uşağın əlil olduğunu, valideynləri olmadığını və İrana aparmaq üçün sənədi olmadığını deyiblər. Bu səbəbdən də doğum şəhadətnaməsini verməyə razı olub.

**Əlövsət Əliyev “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, onunla bağlı ancaq Namiq Camalov danışıb və bu şəxsi tanıyır:** “Belə ifadə verməyini də təbii qarşılayıram. Bir ildən artıq muddətdə qanunsuz saxlanılan şəxsdən başqa cür ifadə gözləmirəm. Təbii, təzyiq altında verib və özü də bunu təsdiq edib. Mən Namiqin verdiyi ifadəyə münasibət bildirmək istəmirəm. Amma işdə adı keçən şəxslərin heç birini mən tanımıram. Həmin şəxslərdən heç biri mənimlə bağlı ifadə verə bilməz. Namiqi də tutublar ki, mənim əleyhimə ifadə alsınlar. Və buna nail olublar. Bu mənim həbsim üçün başlanılan birinci cinayət işi deyil. Bu, Azərbaycanda mənim həbs olunmağım üçün edilən üçüncü cəhddir. Birinci cəhd Ədliyyə Nazirliyindən olmuşdu və AMM-in sənədləri Nəsimi Rayon Prokurorluğuna göndərilmişdi ki, guya təsis sənədləri saxtalaşdırılıb. Lakin biz təkzibolunmaz sənədləri Nəsimi prokurorluğuna təqdim etdikdən sonra həmin fakta görə cinayət işinin başlanması rədd edildi. İkincisi, bir ildən artıq müddətdə hüquqlarını qoruduğum, fasilələrlə təşkilatın sığınacağında saxladığım bir şəxsdən Dövlət Miqrasiya Xidmətində mənim əleyhimə ərizə aldılar. Guya bizim təşkilatda ondan pul alınmışdı. Həmin ərizəni Bakı Şəhər Prokurorluğu araşdırdı. Həmin iş üzrə də işçilərin ifadələri alınandan sonra qaydasına qoyuldu. Üçüncu dəfə DİO-da çalışan bir xanımı həbs elədilər və düşündülər ki, ondan mənim əleyhimə ifadə ala biləcəklər, lakin bu da alınmadı. Ən nəhayət, bu halda nəyəsə nail olmaq iddiasındadılar. Lakin bu da baş tutmayacaq: Mən nəyə görə təqib olunduğumu yaxşı bilirəm, məni təqib edənlər də bunu yaxşı bilirlər. Sadəcə, belə xırda işlərlə mənim həbsimə nail olmaq, daha sonra digər məqsədlərə nail olmağı arzu edirlər”.

**Müsahibimiz dedi ki, onun yeri, evi, ünvanı bəlli olduğu halda, haqqında axtarış elan ediblərsə, bu, hər şey deməkdir:** “Məqsəd sadəcə gözdən salmaqdan ibarətdir indiki mərhələdə. Buyursunlar, cinayət işini göndərsinlər və məni qanuni əsaslarla Almaniyadan tələb etsinlər. Yaşayış yeri olmayan şəxs haqqında axtarış elan olunur. Həm də ittiham dəqiq olmalidir. Şəkinski ifadəsində yazıb ki, evə gedəndə gördüm ki, seyf yoxdur. Elə isə seyfin ogurlanmasını gündəmə gətirməlidir. Həm də Gülnarə xanimin ifadəsi olmadan hansı sübutlarla dəqiqləşdiriblər ki, o pulun hansısa hissəsi kimlərəsə verilib. Konkret saxtalaşdırılan sənəddən söhbət gedirsə, hansı orqandan verilən sənədin saxtalaşdırılması qeyd olunmalıdır”.

**Daxili İşlər Nazirliyinin Baş Cinayət-Axtarış İdarəsinin rəisi general-mayor Emin Şəkinski də son zamanlar mətbuatda barəsində yayılan məlumatlara münasibət bildirib.**

**İdarə rəisi “Report”a açıqlamasında deyib ki, bununla bağlı geniş danışmaq istəmir:** “Bu cür informasiyaların yayılması normal haldır. Çünki Azərbaycan demokratik ölkədir”.

**E.Şəkinski keçmiş həyat yoldaşı Gülnarə Şəkinskayanın və 4 övladının saxta sənədlərlə Azərbaycanı tərk etməsinə də münasibət bildirib:** “Bu barədə geniş danışmaq istəmirəm. Məsələ ilə bağlı cinayət işi açılıb. Digər məsələləri müstəntiqdən soruşa bilərsiniz”.

❑ **Sevinc TELMANQIZI**

# Yunusların məhkəməsinin vaxtı bilindi





## Leyla Yunus və Pərviz Həşimli vəkilləri ilə görüşüblər; İntiqam Əliyevin apelyasiya şikayətinin zamanı bilinmir

**Hazırda həbsdə olan Sülh və Demokratiya İnstitutunun rəhbəri Leyla Yunus və Arif Yunusun istintaqının yekunlaşması barədə xəbər vermişdik. Yunusların cinayət işinə bir baxılacaq.**

Bu barədə müsavat.com-a Leyla Yunusla görüşən vəkil **Elçin Qəmbərov** məlumat verdi: “Leyla xanımın işinə Arif bəylə bir baxılacaq. Çünki bir işdir. Sonuncu dəfə Leyla xanımla iyulun 2-də görüşdüm. Məhkəmədə müdafiə taktikası ilə bağlı danışdıq. İş materialları ilə tanış olmuşuq. Onu müzakirə edirik. Əhval-ruhiyyəsi yüksəkdir”.

APA-nın məlumatına görə, Yunusların cinayət işi üzrə ibtidai istintaq yekunlaşaraq baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib. Cinayət işi üzrə məhkəmənin hazırlıq iclası iyulun 13-nə təyin edilib. Prosesə hakim Əfqan Hacıyev sədrlik edəcək.

**Hüquq Maarifçiliyi Cəmiyyətinin sədri İntiqam Əliyevin vəkili Fəxrəddin Mehdiyev hökmdən verilən apelyasiya şikayətinin vaxtının hələ də məlum olmadığını söylədi: “Bizə hələ bildiriş göndərilməyib. Təyinat olandan sonra mətbuata məlumat verəcəyik. Hesab edirəm ki, çox da ləngiməz. Yaxınlarda təyin olunar. Gələn həftə onunla görüşəcəm”.**

**Jurnalist Pərviz Həşimlinin işi Ali Məhkəmədə icraata götürülüb. Bu barədə onun vəkili Bəhruz Bayramov xəbər verdi:** “Pərviz bəylə bağlı iş Ali Məhkəmədə Hafiz Məmmədovun icraatına götürülüb. Pərviz bəy Ali Məhkəmənin sədrinə müraciət edib. Ağır Cinayətlər və Apelyasiya məhkəmələrində işə düzgün baxılmadığını, ciddi qanun pozuntularının olduğunu bildirib. Ali Məhkəmə sədrindən xahiş edib ki, bu işi nəzarətə götürsün, qanuni və əsaslı qərar çıxarmasına kömək etsin. İyulun 2-də onunla görüşdüm. Cəzaçəkmə müəssisəsinin əməkdaşlarından narazılığı olmasa da, sovet dövründən tikilmiş bir yerdir. Soyuducu sistemi ümumiyyətlə yoxdur. İstilərdən ciddi əziyyət çəkir. Çünki heç bir şərait yoxdur. Ailəsi ilə əlaqə saxlayır və görüşürlər. Mütəmadi olmasa da, bir neçə aydan bir görüşürlər. Çünki ora gedib-gəlmək ailəsi üçün çox çətindir. Yolları bərbad vəziyyətdədir”.

**Milli Dövlətçilik Partiyasının sədri Nemət Pənahlı iyulun 3-də ailəsi ilə danışıb. Partiya sədrinin səhhəti ağır olaraq qalmaqda davam edir:** “Hər şey olduğu kimidir. Çətinliklərə birtəhər dözür. Bu ayın 22-də görüş vaxtıdır. Həftədə iki dəfə zəng vurmaq vaxtıdır”.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 144 (6172) 4 iyul 2015

## Borclu biznesmenlər haqda iki sensasion məlumat


Hafiz Məmmədov


Monako knyazı II Alber

# Axtarışda olan "Hafka"nı "ip"dən aldılar

**Hafiz Məmmədov Bakıya qayıtmasının şok səbəbi üzə çıxır; bobsley həveskarı olan Monako knyazı Alberlə qalmaqallı iş adamını nə birləşdirir? Hacı İbrahim "Xəzər adaları"nın borca görə əlindən alınması xəbərindən danışdı**

**Beynəlxalq Bankda külli miqdarda kredit borcu olan iş adamlarının Avropa Oyunları bitən kimi yenidən başları dərdə girib. Modern.az saytının xəbərinə görə, "Avesta" konserninin prezidenti Hacı İbrahim Nehrəmli Beynəlxalq Banka borcunu qaytara bilmədiyi üçün "Xəzər Adaları"nı itirməli olub. Qiymətləndirmədən sonra "Xəzər Adaları" layihəsi üzərində Hacı İbrahim Nehrəmlinin mülkiyyətçiliyi ləğv edilib.**

Virtualaz.org saytı bu məlumatlara aydınlıq gətirmək üçün iş adamına müraciət edib.

Oliqarx sayta açıqlamasında bu məlumatları təkzib edib, "Xəzər adaları" layihəsini itirmədiyini bildirib: **"Mənim Beynəlxalq Bankla heç bir problemim yoxdur. Ümumilikdə isə mən bu layihəni satmaq barədə heç vaxt düşünməmişəm. Bəzi adamlar belə yalan məlumatlar və şayiələr yayırlar. Deyirlər ki, obyektlərimi məndən guya alırlar. Azərbaycanda hüquqi dövlət qurulub, ölkədə qanunlar var. Heç kim heç kimin mülkünü ala bilməz. Mənim kreditlərimə gəlincə isə Beynəlxalq Banka olan kredit borclarımın hamısını 2019-cu ilə qədər ödəyəcəyəm".** Hacı İbrahim onu da qeyd edib ki, onun kredit borclarının həcmi hazırda 430 milyon manatdan çoxdur.

"Xəzər Adaları" hazırda tikilən, Xəzər dənizində, Bakıdan 25 km cənubda yerləşən, 41 adadan ibarət, 3000 hektar sahəni əhatə edən süni arxipelaq şəhəridir. Tikinti işlərinə 2011-ci ilin mart ayında başlanılıb. Layihənin dəyəri 100 mlrd. dollar təşkil edir. Xatırladaq ki, Hacı İbrahim borc səbəbindən bir neçə gün DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin təcridxanasında saxlanılmışdı.

Beynəlxalq Bankdan götürülən kreditlərin mənimsənilməsi ilə bağlı başlanmış cinayət işi çərçivəsində axtarışa verildiyi deyilən məşhur iş adamı Hafiz Məmmədov ("Hafka") barədə də sensasion məlumat yayılıb.

Beynəlxalq Banka bir neçə 100 milyon manat borcu olan "Hafka" barədə mayın 18-də həbs-qətimkan tədbiri seçildiyi bildirilirdi. O, bu pulu 2008-ci ildə yaratdığı "Baghlan Group" holdinqin adına götürüb. Bu xəbər ictimailəşəndən sonra "Hafka" yerli saytlardan birinə açıqlama verərək ölkədə olmadığını təsdiqlədi. Ancaq yaydığı bəyanatda qaçdığı və cinayət məsuliyyətinə cəlb olunduğu haqda məlumatları təkzib etdi: **"Mənim ölkədən qaçmağım haqda KİV-lərdə yayılan informasiyalar tamamilə yalandır. Hazırda Londondayam, müalicə alıram. Ayağımda problemlər var. Yaxın günlərdə Bakıya dönəcəyəm".** Hələ o zaman da "Yeni Müsavat" yazmışdı ki, "Hafka"nın "xəstələnərək" Londona getməsi, üstəlik, yerini də açıqlaması şübhəlidir.

Azpolitika.az saytı yazıb ki, "Hafka" Bakıya qayıdıb. Belə ki, onu bir neçə gün əvvəl "Xalqlar Dostluğu" ticarət mərkəzinin sahibi, Naxçıvandan olan iş adamı İman Quliyevin əmisi oğlunun yas mərasimində görüblər.

Bəs Daxili İşlər Nazirliyi Mütəşəkkil Cinayətkarlıqla Baş Mübarizə İdarəsinin təqdimatı ilə haqqında məhkəmə tərəfindən həbs-qətimkan tədbiri seçilən Hafiz Məmmədovun saxlanılmamasının səbəbi nədir?

Məlumata görə, Monako knyazı II Alberlə yaxın dostluq əlaqələri olan Hafiz Məmmədov həbs xəbərini aldıqdan sonra Londona deyil, Monakoya uçub. Saytın iddiasında deyilir ki, "Hafka" barəsindəki həbs-qətimkan tədbirini dəyişdirmək üçün Monako knyazını iqtidara minnətçi salıb.

Məlumata görə, Monakonun cəmi 5 idmançı ilə qatıldığı I Avropa Oyunlarının açılış mərasimində iştirak etmək üçün Bakıya gələn knyaz Azərbaycan rəhbərliyindən Hafiz Məmmədovla bağlı həbs-qətimkan tədbirinin dəyişdirilməsini xahiş edib. "Hafka"nın artıq Bakıda olması faktı Monako knyazının xahişinin nəzərə alındığını deməyə əsas verir.

Müflisləşmiş iş adamının bu cırtdan ölkəylə bağlılığı isə təsadüfi sayılmır. Bəzi məlumatlara görə, kazino, qumar oyunlarının mərkəzlərindən biri sayılan Monakonun Monte Karlo şəhərində Hafiz Məmmədovun iri mülkü də var.

Bəzi mənbələr isə Məmmədovun kazino oyunlarına meylli olmasını əsas gətirərək, onun sərvətinin böyük hissəsini qumarda itirdiyini iddia edir. Bu baxımdan Hafiz Məmmədovun Monako knyazı əlahəzrət II Alberlə tanışlığının və dostluğunun da öz başlanğıcını Monte Karlonun elit kozinolarından başladığı güman edilir.

1958-ci il doğumlu Knyaz Alberin də maraqlı həyat tarixçəsi var. O, hələ uşaqlıqdan idmanın bir neçə növü-futbol, üzgüçülük və cüdo ilə maraqlanır. Bobsley (buz üstə araba sürmək) üzrə 5 Qış Olimpiadasının iştirakçısıdır. 2005-ci ilin 19 noyabrında taxt-taca yiyələnib.

"Hafka"nın problemi Beynəlxalq Bankla bitmir. İyulun 13-də Böyük Britaniyadakı Vircin adalarının kommersiya məhkəməsində "BNP Paribas Trust Corporation UK Limited" şirkətinin "Baghlan Group Limited" şirkətinə qarşı məhkəmə iddiasına açıq baxışına başlanılacaq. 2012-ci ildə isə "Baghlan Group Limited" "BNP Paribas Trust Corporation UK Limited" şirkətinin iştirakı ilə Kayman fond birjasında 150 milyon dollarlıq istiqrazlar yerləşdirib. Qiymətli kağızlar bu ilin yayına qədər tam ödənilməli olsa da, Hafiz Məmmədov bu məsələni həll edə bilməyib.

Bu arada "Baghlan Group Limited" şirkəti ona ləğvedici təyin edilməsi barədə yerli məhkəməyə vəsatət verilib. Vəsatət məhkəməyə bu il iyunun 17-də daxil olub.

"Baghlan Group Limited" Azərbaycanın "Bahar" və "Qum dəniz" yataqlarını işləyən "Bahar Energy Ltd."nin səhm paketinin sahibi olub. Amma 2014-cü ildə şirkət maliyyə problemi üzündən bu paydan məhrum olub.

❑ **"Yeni Müsavat"**

# "İslahatlar olmasa, ölkənin gələcəyi qaranlıqdır"

## AMİP sədri: "Azərbaycanda İctimai Palata təsis olunmalıdır"

**Azərbaycanda kadr islahatlarına başlanacağı, eyni zamanda müxtəlif sahələrdə islahatlara start veriləcəyi barədə son günlər xəbərlər yayılır, yazılar və şərhlər verilir. Bildirilir ki, ölkədə kadr dəyişikliyi qaçılmaz görünür. Prezident İlham Əliyev komandasına qarşı tələblərini artırır. Ölkədə narazılığın əsas mənbəyi olan məmurları cəzalandırmaq prosesinə hər an start veriləcəyi söylənilir.**


Yusif Bağırzadə

Ölkədə ciddi islahatlara, o cümlədən kadr islahatlarına gedilməsinin qaçılmaz olduğunu **AMİP sədri Yusif Bağırzadə** də "Yeni Müsavat"a açıqlamasında bildirib. Onun dediyinə görə, Avropa Oyunlarında olduğu kimi, bu il keçiriləcək parlament seçkilərində də dünya birliyinin diqqəti ölkəmizdə olacaq. Azərbaycan hakimiyyəti bunu nəzərə almalıdır. Ona görə də ilk növbədə ciddi, böyük islahatlar keçirilməlidir. Həm konstitusiya, həm seçki, həm hüquqi, həm siyasi, həm iqtisadi islahatlar olmalıdır: "Manatın devalvasiyasından, Binəqədidəki yanğından və Beynəlxalq Bank qalmaqalından sonra belə bir ideya qaldırıldı ki, Azərbaycanda ictimai nəzarət gücləndirilməlidir. İctimai nəzarəti yerinə yetirən bir təşkilat olmalıdır. Mən düşünürəm ki, bu təşkilat İctimai Palata olmalıdır. Azərbaycanda İctimai Palata təsis olunmalıdır və palatanın sədri dövlət başçısı olmalıdır. Bu model bir neçə dövlətdə var. Azərbaycanla bağlı Avropa Parlamentində, AŞ PA-da son vaxtlar bir neçə sənədlər qəbul olundu. Bu qətnamələrin ardı daha sərt addımlarla müşayiət oluna bilər. Ona görə də Azərbaycanda yuxarıda qeyd etdiyim mühüm sahələrdə təcili islahatlara gedilməlidir. İslahatlar sırasında ilk yerlərdə təbii ki, kadr islahatları da yer almalıdır. Məndə də informasiyalar var ki, kadr islahatlarına start veriləcək. Bunun parlament seçkilərindən əvvəl, yaxud sonra baş verəcəyini isə dəqiq söyləmək çətindir. Azərbaycanda bir çox nazirliklər, dövlət komitələri öz işlərinin öhdəsindən yetərincə gələ bilmir. Həmin qurumlarda rəhbərlikdən aşağıya doğru dəyişikliklər həyata keçirilməlidir.

İslahatlar sırasında Azərbaycanda Açıq Hökumət naziri institutu təsis edilməlidir. Dünyanın bir sıra ölkələrində bu təcrübə uğur gətirib.

Azərbaycan neft-qaz ölkəsindən sənaye, aqrar, tranzit dövlətinə çevrilməlidir. Gələcəyimizin təminatı üçün bunlar olmalıdır".

**Y.Bağırzadə vurğuladı ki, bu islahatlara gedilməsə, ölkənin gələcəyi qaranlıqdır:** "Siyasi məhbus hesab edilən şəxslərin işlərinə yenidən baxılmalıdır və ya onlar əfvlə azad olunmalıdır. Bütün bu məsələlər həllini gözləyir. Yoxsa Azərbaycana təzyiqlər azalmayacaq, biz təklənəcəyik.

Azərbaycanda seçki islahatları keçirilməlidir. 1995-ci ildə birinci çağırış Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər keçiriləndə Azərbaycanın əhalisi 7 milyon nəfər idi. İndi 2015-ci ildir və əhalimizin sayı 10 milyona yaxındır, ancaq hələ də parlamentdə 125 deputat yeri var. Əhalinin sayı 3 milyon nəfər artıb, dairələrin sayı əhali 7 milyon olanda nə qədər idisə elə də qalır. Seçki islahatları sırasında seçki dairələrinin sayı artırılmalıdır ki, parlamentdə deputat yerlərinin sayı artsın. Keçmiş SSRİ respublikaları var ki, imkanları Azərbaycanın imkanlarından zəifdir, ancaq parlamentlərində deputatların sayı bizdəkindən çoxdur, həmin ölkələrin əhalisinin sayı Azərbaycan əhalisinin sayından heç də çox deyil.

İqtisadi islahatlara daha ciddi önəm verilməlidir. Ümumiyyətlə, Azərbaycanda biznes ombudsmanı olmalıdır".

**AMİP sədri Azərbaycanın xarici siyasətində də dəyişikliklər edilməsinin zəruriliyini söylədi:** "Dünyanın böyük bir hissəsi bu gün Rusiyaya qarşıdır, Azərbaycan isə Rusiyanın yanındadır. Nəticədə Rusiyaya yönələn zərbələrin bir qismi Azərbaycanın üzərinə yönəlir. Kimsə fikirləşirsə ki, bununla Rusiya Azərbaycana münasibətini dəyişəcək və bizim xeyrimizə addımlar atacaq, bu, yanlış fikirdir. Kimsə düşünürsə ki, biz Rusiyaya bu qədər yaxınlaşmaqla, Qərbdən bu qədər uzaqlaşmaqla Qarabağı azad edə biləcəyik, bu da yanlış düşüncədir. Rusiya bu gün də Azərbaycanın xeyrinə olan bir sıra iqtisadi əhəmiyyətli layihələrin həyata keçməsinə mane olur. Avropada nəşr olunan Azərbaycan əleyhinə kəskin yazılar dərc edilən bir çox qəzetlərin sahibləri də rus oliqarxlarıdır. Azərbaycanın yolu Avropaya doğru olmalıdır, islahatlar yolu olmalıdır".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 144 (6172) 4 iyul 2015

# Qalmaqallı kredit işi ilə bağlı daha bir ilginc gəlişmə

**Azərbaycan əsilli yəhudi oliqarx Telman İsmayılovun AST şirkətlər qrupuna daxil olan "KBF AST" ASC-nin Moskvanın Nikitsk bulvarı, 6/20 ünvanında otel inşası layihəsini ləğv etdiyi barədə xəbər vermişdik. Xəbərdə bildirilirdi ki, buna səbəb biznesmenin hotel tikintisi üçün aldığı torpaq sahəsini borca görə Kiprdə qeydiyyatdan keçmiş offşor şirkətə verməsidir.**

Belə ki, "Vedomosti" qəzeti Moskva hökumətindəki mənbəyə istinadən yazıb ki, Telman İsmayılov 27 min kvadratmetrlik hotel kompleksinin tikintisi üçün nəzərdə tutulan və 10 ildir mülkiyyətçisi olduğu ərazini ödəyə bilmədiyi borclarına görə "Luazo Corporation" şirkətinə verib. "Luazo Corporation" şirkəti isə "AST Group"un tərəfdaşıdır. İsmayılovun bu şirkət qarşısında nə qədər borc öhdəliklərinin olduğu göstərilməyib.

Moskvadakı torpaq sahəsinin borca görə verilməsi sövdələşməsinə əsasən, həmin ərazinin 45 faizi "Luazo Corporation"un mülkiyyətinə keçib, 53,5 faizi isə Moskva meriyasının mülkiyyətində qalıb, cəmi 1 faizini "KBF AST" özündə saxlayır. "Fortrast Global" şirkətinin saytında yerləşdirilmiş məlumat da Telman İsmayılovun həmin torpaq sahəsini yeni investora verdiyini təsdiqləyir.

Həmin investor - şirkətin minoritar səhmdarlarından biri və rəhbəri İsazadə Zaur Natiq oğludur. Bu şəxs eyni zamanda "Luazo Corporation" şirkətinin baş direktorudur. "Fortrast Global"ın saytında göstərilir ki, Moskvanın Nikitsk bulvarında otel kompleksinin inşası layihəsi həmin şirkətin investisiya portfelinə daxildir.



# Vəzirovun yaxın qohumu Cahangir Hacıyevlə müəmmalı iş ortaqlığında

## "AST Telman"ın borca görə hotel ərazisini satdığı "Luazo Corporation" şirkətinin baş direktoru Zaur İsazadəni Beynəlxalq Bankın sabiq rəhbəri ilə nə birləşdirir? Rusiya Hüquq Akademiyasının sıravi məzunu olan bir şəxsin biznes imperiyasının sirri...

***

Bəs "AST Telman"dan torpaq alıb hotel tikmək istəyən Zaur İsazadə kimdir? Qeyd edək ki, yazı dərc olunan kimi onun haqda qəzetimizə maraqlı məlumatlar daxil olub.

**Adının çəkilməsini istəməyən mənbə İsazadə barəsində dosyeyə belə bir sualla başlayır:** "İlk baxışda Rusiya Hüquq Akademiyasının sıravi məzunu olan bir adamda bu qədər səhmlər və firmalar hardandır?" **Mənbə suala özü belə cavab verir:** "Ondan başlayaq ki, Zaur İsazadə Vəzirovun qohumudur *(O Əbdülrəhman Vəzirov ki, 20 Yanvar qırğınının günahkarlarından biridir)*. Daha doğrusu, Vəzirovun qardaşı qızının əridir. Eyni zamanda o, Azərbaycan Beynəlxalq Bankının (BB) Moskva filialının sədri Fuad Abdullayevin yaxın adamlarındandır *(Fuad Abdullayevin "AST Telman"la Moskvada illərdir mülk mübahisəsinin olduğu bildirilir - red.)* İsazadənin BB-nin Moskva filialında yüz milyon dollarla krediti var və əksər kreditlərin verilməsində birbaşa vasitəçilik edir".

**Mənbə daha sonra bildirir:** "Beynəlxalq Bankın "Portofino" yaşayış kompleksini də İsazadə inşa edir və satır. Xaqani Bəşirovun *(BB-nin keçmiş sədri Cahangir Hacıyevin ortaqlarından biri, hazırda Fransada yaşayır -red.)* cinayət işində də Zaur İsazadənin adı hallanıb. Bu adamın həmçinin çoxsaylı offşor firmaları var. Bu yaxınlarda Moskvada bir qrup azərbaycanlı vətənpərvər "Bakı" kinoteatrını alıb orada Azərbaycan Mədəniyyət Mərkəzi yaratmaq istəyirdi. Ki, bizi Moskvada təkcə "pomidor-qarpız satanlar" kimi tanımasınlar. Cahangir Hacıyev bu təşəbbüsü bəyənib Fuad Abdullayevə azərbaycanlılara kömək etməyi tapşırsa da, sonuncu onlara cürbəcür əngəllər yaratdı - həm də Zaur İsazadənin köməkliyi və iştirakı ilə. Di gəl, Zaur İsazadə yüz milyonlarla dollar kredit götürür və üstəgəl, öz yaxın ətrafının da kredit götürməsinə yardımçı olur".

Belə görünür, Beynəlxalq Bank ətrafında son baş verənlər də Vəzirovun yaxın qohumunun bankla əlaqələrinə ciddi təsir etməyib.

❑ **Siyasət şöbəsi**

# Bakıda 3 vəzifəli şəxs həbs olundu

## Vergilər Nazirliyi "Bakılift-təmir"də total yoxlamaları yekunlaşdırıb; həbslər başladı

**Vergilər Nazirliyinin Bakı Şəhər İcra Hakimiyyəti Mənzil Kommunal Təsərrüfat Departamenti tərkibindəki "Bakılift-təmir" İstehsalat Birliyində yoxlamaları yekunlaşıb. Uzun müddətdir davam edən yoxlamalar nəticəsində, əvvəllər də məlumat verdiyimiz kimi, ciddi vergi pozuntularının və yeyintilərin olması üzə çıxıb.**



Vergilər Nazirliyindəki mənbəmiz bildirir ki, bu nəticələr əsasında həbslər həyata keçirilib. 3 böyük idarənin - "Bakılift-təmir"ə tabe olan "Baklift-1", "Bakılift-2", "Bakılift-3" ixtisaslaşdırılmış istehsalat idarələrinin rəisləri qandallanaraq, həbs edilib.

"Bakılift-təmir"də böyük yeyintilərin olması 1-ci Avropa Oyunlarından əvvəl də müəyyən olunmuşdu. Manatın qəfil ucuzlaşması hökuməti büdcədə əmələ gələn kəsirləri kompensasiya etmək üçün müəyyən addımlar atmağa məcbur etmişdi. Bu istiqamətdə atılan addımlardan biri də məmurların mal-mülklərinin siyahılarının hazırlanması, gəlirlərinin müəyyən olunması ilə bağlı olub. Belə bir yoxlama zamanı "Bakılift-təmir"in baş direktoru Qüdrət Şükürovun sürücüsünün "adına" nə az-nə çox, düz 5 milyon manatlıq əmlak olduğu üzə çıxmışdı. Bu ilin fevralında "Yeni Müsavat" bu haqda "Vəzifəli məmurumuz sürücüsünə 5 milyona mənzil aldı - sensasiya" sərlövhəli yazı dərc etmişdi. Həmin yazıda qeyd olunurdu ki, Q.Şükürovun sürücüsünün "adına" Bakının mərkəzindəki "Alov qülləri" kompleksində dəyəri 5 milyon manat olan mənzil var! İzahat üçün deyək ki, həm "Alov qülləri" kompleksində, həm də "Hilton" hotelində şəxsi mənzil üslubunda da yaşayış sahələri var və onlar yüksək qiymətlərə satılır.

Yeri gəlmişkən, onu da qeyd edək ki, Vergilər Nazirliyinin hər il açıqladığı büdcəyə borclu təşkilatların siyahısında "Bakılift-təmir"in də adı var. Aldığımız məlumata görə, "Bakılift-təmir"in rəsmən 8 milyon manat vergi borcu var idi.

Q.Şükürov bu vəzifəyə 2012-ci ilin yanvarında Bakı meri Hacıbala Abutalıbovun əmri ilə təyin edilib. Ona qədər ilk baxışdan əhəmiyyətsiz görünən bu postu Vaqif Xəlilov tutub. H.Abutalıbovun kadr seçiminin "özəlliyi" haqda məlumatı olanlar bilir ki, Bakı meri ən əhəmiyyətsiz posta belə təyinat zamanı əmrləri imzalamaqdan yayınır. Namizədin kimliyini müxtəlif yollarla araşdırır. Bu baxımdan Q.Şükürovun da təsadüfən baş direktor vəzifəsinə təyinat almasını söyləmək olmaz. Onu da demək olmaz ki, Q.Şükürov hansısa addımı Bakı merinin xəbəri olmadan atıb. Ola bilər ki, o, özünə əmlak alanda H.Abutalıbovla məsləhətləşməyib, amma indi Bakı meri də əməllicə cəncələ düşüb.

Q.Şükürovun bu təyinata qədər hansı vəzifəni tutduğu haqda məlumat yoxdur. Bilinən odur ki, 2010-cu ilin aprelində ona məxsus olan "Range Rover" markalı maşından şüşəni sındırmaq yolu ilə 100 min ABŞ dolları və 60 min manat oğurlanıb. Sonradan polis oğruları tutub. Onun deputatlardan biri ilə qohumluq əlaqələrinin olduğu da bildirilir.

"Yeni Müsavat" əməkdaşı məsələ ilə bağlı "Bakılift-təmir" və Vergilər Nazirliyinə sorğu ilə müraciət edib. Hər 2 qurumdan sorğumuza növbəti həftənin əvvəlində cavab veriləcəyi bildirilib. Veriləcək sorğuların cavablarını təqdim edəcəyik.

**Mövzuya qayıdacağıq.**

❑ **E.HÜSEYNOV**

# Bu dəfə də alınmasa...



**Hüseynbala SƏLİMOV**

**Çalışıram ki, Ukrayna ilə bağlı xəbərlər diqqətimdən qaçmasın. Başa düşdüyüm dillərdə bu ölkədən olan bütün xəbərləri oxumağa çalışıram və açığı bir az dilxor oluram. Ona görə dilxor oluram ki, baxıb görürsən ki, bu xalq etiraz edə və öz niyyətini-fikrini təsdiq edə bilir. Məsələn, bizim belə imkanımız yoxdur və bu haqda düşünəndə fikir məni uzaqlara aparır...**

Lap çoxdanın söhbətidir. Bir lətifə vardı. Deməli, L.Brejnevlə R.Nikson mübahisə edirlər. O deyir ki, mənim ölkəm daha azaddır, bu deyir ki, yox, mənim ölkəm azaddır...

Bəli, axırda Nikson qayıdır ki, ABŞ-da hər bir adam Ağ Evin qarşısına gəlib prezident haqqında istədiyi qədər tənqid deyə bilər. L.Brejnev də bilmir, nə desin, qayıdır ki, nə olsun, bizdə də hər bir adam Qızıl meydanda ABŞ və onun prezidenti haqqında istədiyi tənqidi söyləyə bilər...

Bunu niyə xatırladım? Düşünürük ki, azərbaycanlı fəalların Ukraynaya, hətta Ermənistana baxıb köks ötürməsinin mənası yoxdur, çünki Azərbaycanda da aksiya keçirmək mümkündür. Məsələn, uyğurlara dəstək aksiyasını... Bir neçə gənc elə bu günlərdə belə aksiya təşkil etmişdi. Hətta bəzi telekanallar da onu yetərincə işıqlandırdılar...

Bununla təbii ki, azərbaycanlı gənclərin aksiyasına kölgə salmaq fikrimiz yoxdur-uyğurları da müdafiə etmək lazımdır... Hətta yada salmaq istərdik ki, bir vaxtlar, heç də uzaq olmayan keçmişdə, tez-tez Cənub Azərbaycanının fəallarına dəstək aksiyaları və Cənub azərbaycalılarının hüquqlarını müdafiə etmək üçün tədbirlər keçirilirdi. Amma sonradan İran və Azərbaycan hakimiyyətlərinin münasibətləri o qədər yaxşılaşdı ki, daha belə aksiyaları təşkil etmək, keçirmək mümkün olmadı...

Bəzən deyirlər ki, guya aksiyalar digər insanlar üçün problem yaradır. Amma bir misal çəkəcəm, bəlkə də o, bir qədər uğurlu olmayacaq. Elə götürək bu son Avropa oyunlarını. Bir-iki həftə ərzində nə qədər yasaq və məhdudiyyət tətbiq olundu? Məgər bunlar digər insanların hərəkəti və yaşayışı üçün problemlər yaratmırdımı? Təbii ki, yaradırdı...

Burada deyə bilərlər ki, bu, beynəlxalq tədbir idi, idman bayramı idi. Amma həmin məntiqlə demək olar ki, aksiyalar da fəallar üçün bayramdır. Qərəz, bu o deməkdir ki, formal məntiqə görə hər şeyi əsaslandırmaq mümkündür...

Ona görə də ən yaxşısı insanlara sərbəstlik vermək, onlara istədikləri dinc aksiyaları keçirməyə imkan verməkdir. Belə olsa, hamı üçün yaxşı olar və biz də hansısa məsələni əsaslandırmaq üçün dağa-daşa üz tutmarıq...

Dünya ölkələrinə baxanda görürsən ki, insanlar hər yerdə aksiyalar təşkil edirlər. Halbuki onların azad mətbuatı və məhkəməsi, demokratik qaydada seçilmiş parlamenti və deputatları var. Amma bunlar kifayət etmir, insanlar yenə də dinc nümayiş aksiyalarına üstünlük verirlər...

Xüsusən də bu il parlament seçkisi olmalıdır. Hətta deyilənə görə hakim partiya özünün siyahısını artıq müəyyən edib. Məsələ bunda deyil, əgər onlar bunu hələ etməyiblərsə də yaxın vaxtlarda edəcəklər, hələ vaxt var...

Avropa oyunlarını keçirəndə dedilər ki, Azərbaycanı dünyaya tanıtmaq istəyirik. Burada maraqlı sual yaranır. Bəlkə Azərbaycanı dünyaya başqa bir aspektdən də tanıdaq? Məsələn, demokratik seçki keçirən, yüksək parlamentarizm mədəniyyətinə malik bir ölkə kimi... Məgər belə ola bilməz?

Axı bu da yaxşı reklam olardı...

Nə isə. Qayıdaq Ukraynaya. Orada sadaladığım problemlər yoxdur. İnsanlar nə vaxt istəyirlər, harada istəyirlər aksiya keçirə bilirlər, hətta hakimiyyətləri də istədikləri vaxt dəyişirlər...

Amma bütün bunların son nəticəsi də olmalıdır, çünki hər şey sonda nəticə ilə ölçülür- o, yalnız dekabristlər idi ki, onların təkcə meydana çıxması nəsillərə örnək oldu, tarix üçün yetərli oldu...

İndi Ukrayna ilə bağlı Z.Bjezinski planından dəm vururlar. Plan Ukraynanın ordusunun gücləndirilməsini, amma onun NATO-ya üzv qəbul edilməməsini nəzərdə tutur...

Bəlkə də bu planda hər şey ölçülüb-biçilib. Amma bizdə belə bir yəqinlik var ki, Ukrayna AB-yə və NATO-ya üzv qəbul edilməyənə qədər işlər düzəlməyəcək. Hətta ola bilər ki, bir müddətdən sonra ukraynalılar da, məsələn, Kamçatkadakı həmvətənlilərinin hüquqlarını müdaifə etməli oldular.

Necə ki, biz uyğurların hüquqlarını müdafiə edirik...

**Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondu (KİV DF) 2009-cu ildən etibarən Azərbaycanın yazılı mətbuatına dəstək olmaqdadır. İqtisadi cəhətdən zəif durumda olan yazılı mətbuatın əsas mövcudluq mənbələrindən biri də KİVDF vasitəsilə təklif olunan layihələrdə iştirakdır. Azərbaycan hakimiyyətinə münasibətdə müstəqil və müxalif olan media qurumları da KİVDF layihələrinə qatılmaq və faydalanmaq şansına malikdirlər.**

# İqtidar qəzetlərə niyə pul verir...

## Rauf Arifoğlu: ""Azadlıq" hakimiyyətdən aldığı 307 min manat pulu, iki evi, əməkdar jurnalist adını qaytaracaqmı..."



"Yeni Müsavat" qəzeti ilk vaxtlardan etibarən KİVDF layihələrində yaxından iştirak edib və proses davam etməkdədir. Radikal müxalifət partiyası olan AXCP-nin nəzarət etdiyi "Azadlıq" qəzeti isə 2013-cü ilin dekabr ayına qədər bu layihədə iştirak edib və hər ay fonddan pul alıb. Göstərilən tarixdən etibarən KİVDF "Azadlıq" qəzetinin bank hesablarının həbsdə olmasını və fondun nizamnaməsini pozmasını əsas gətirərək, onu layihədən uzaqlaşdırıb.

Musavat.com bildirir ki, KİVDF ildə iki dəfə, yəni hər 6 aydan bir qəzetlərlə müqavilələri yeniləyir, mövzular üzrə müsabiqə elan edir, yekunda da onun nəticələrini və hər qəzetə layihə üzrə ayrılan məbləği göstərir.

Bu zaman, demək olar ki, hər dəfə siyasi və media mühitindən bu prosesə reaksiyalar ortaya çıxır. İctimaiyyətə isə belə təqdim olunur ki, iqtidar ona xidmət göstərən qəzetlərə pul yardımı ayırıb.

**Əslində isə...**

**Bu barədə "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu danışır:** "Bu proqram çərçivəsində biz, - "Azadlıq" və "Yeni Müsavat" qəzeti olaraq müəyyən müddət birgə fəaliyyət göstərmişik, paslaşmışıq, Qənimət Zahid Bakıda olduğu müddətdə bir-birimizə dəstək olmuşuq. Və çalışmışıq ki, heç birimiz bu kampaniyadan, bu proqramdan geri qalmayaq. Çünki bu, bizim qurduğumuz dövlətin pullarıdır və onu ən çox da biz haqq edirik Azərbaycanın azad mətbuatı olaraq. Çox təəssüf ki, "Azadlıq" qəzetinə dəstək il yarım öncə dayandırıldı. Lakin bu qəzet dəstək aldığı 4 il müddətində də AXCP və onun tərəfdarları hər dəfə öz qəzetlərini görməzdən gələrək, "Yeni Müsavat"a qarşı kampaniya apardılar. Əvvəllər deyirdilər ki, niyə azadlıq 40 min, "Yeni Müsavat" 60 min alır; deməli, siz satılmısınız. Düz 4 il bunu yazdılar, dedilər. 2014-cü ildən, "Azadlıq" qəzetinə yardım kəsiləndən bəri isə üstümüzə daha çox gəlirlər. Hər dəfə də elə təqdim edirlər ki, sanki proses yenidir, indicə başladı, hökumət bizə "xidmətimizə" görə mükafat verib. Hər 6 aydan bir bunu edirlər, reaksioner elektoratları da onlara qoşulur, başlayırlar vay-şivənə. 34 qəzet fondun layihəsinə qoşulub; 4 il də "Azadlıq" qəzeti bu proqramdan yararlanıb; lakin düz 6 ildir ki, AXCP və onun bütün çevrəsi təkcə "Yeni Müsavat"a qarşı şantaj kampaniyası aparır. İndi buna Cəmil Həsənli kimi ağsaqqal da qoşulub, üstümüzə çamur atır. Məndən tələbləri budur ki, bu proqramdan çıxım, yoxsa satqınam. Əcəba, o zaman "Azadlıq" qəzeti də 4 ildə aldığı 307 min 700 manat pulu və KİVDF-dən aldığı iki evi, prezidentin fərmanı ilə verilən əməkdar jurnalist adlarını geri verəcəkmi? Yoxsa hər şey bunlara caiz, yalnız bizəmi haram buyurulub?

Yazılı mətbuatın durumu olduqca ağırdır və biz onsuz da iflasın eşiyindəyik. Vəziyyətimizi iqtidarla yanaşı, müxalifət təşkilatları və liderləri də ağırlaşdırır. Sanki Azərbaycanda çoxları qəzetlərin təyinatını unudub. Qəzetləri söymək yox, oxumaq *(ya da oxumamaq)* lazım gəldiyini demək olar ki, hər gün xatırlatmağa məcbur qalmışıq.

"Yeni Müsavat" qəzetinin baş redaktoru və meneceri olaraq bildirirəm ki, əslində fond və qəzetlərin münasibəti mahiyyət etibarı ilə yardımlaşmaq da deyil. Biz qrant layihəsi kimi layihələr təqdim edirik və "Yeni Müsavat" qəzeti Dağlıq Qarabağ mövzusunda hazırlanan yazıları yerləşdirmək üçün 20 səhifəsini KİVDF-yə kirayəyə verir. Yəni bu, həm də bir reklam prosesidir. Bizim qiymətlərimizlə 20 səhifənin reklam dəyəri 16 min manatdır. Lakin KİVDF-yə biz bunu 10 min manata veririk. Bu proqramdan da biz çox məmnunuq. Azərbaycan hakimiyyətinin Azərbaycan mediasına münasibətdə atdığı ən düzgün və yaxşı addımlardan biridir. Bu addımın da üstündən xətt çəkmək, onu qaralamaq, onu pisləmək Azərbaycan mətbuatına, yazılı mediasına düşmənçilikdir. "Yeni Müsavat"ın və mənim üstümə gələn insanların məntiqi ondan ibarətdir ki, mən qəzeti dayandırım, özüm də çəkilim gedim oturum bir kənarda. Bağışlasınlar, mən bunu etməyəcəm. Kimin istəyib-istəməməsindən asılı olmayaraq, mən "Yeni Müsavat" qəzetinin hər hansı bir yolla, hər hansı bir variantda, istənilən metod və yolla həyatını davam etdirməyə çalışacam. Çünki alternativim yoxdur. Bu qəzet dayansa, müxalifətdən bizə heç bir dəstək olmayacaq. Əksinə, xeyli insan şükür edəcək ki, nə yaxşı, bu "Yeni Müsavat" qəzeti dayandı. Oxucuya da vermək istədiyim bilgi ondan ibarətdir ki, bu proqram altı ildir davam edir. Hər altı aydan bir müqaviləmiz yenilənir, göstərilən fəaliyyətlər təftiş olunur. Ən son olaraq da nəticələr və növbəti 6 ayda görüləcək işlərə dair ayrılan məbləğlər elan edilir. Arzu edərdim ki, bu layihə üzrə bizə ildə yüz iyirmi min manat yox, hər il bir milyon - iki milyon arası maliyyə ayrılsın. Əgər bu dəstək verilsə, mən bunu böyük məmnuniyyətlə qəbul edərdim. Bir məqamı da vurğulayım ki, proses olduqca şəffaf, hər qəpiyi hesablanmış, əsaslandırılmış bir layihədir".

❑ **Röya RƏFİYEVA**

# Siyasətçilər Rəsul Quliyevin dinlə bağlı fikirlərinə reaksiya verdilər



**Elman Fəttah:**
"İnanclara sayğı demokratiyanın əlifbasıdır"



**İqbal Ağazadə:**
"Onun mövqeyinin əksinə söyləyəsi bir fikrim yoxdur"



**Sərdar Cəlaloğlu:**
"Rəsul Quliyev əyri yoldadır"



**Pənah Hüseyn:**
"Hər kəsin bu və ya digər dinə etiqad etmək, yaxud etməmək azadlığı var"

**Parlamentin eks-spikeri, hazırda ABŞ-da mühacirətdə yaşayan Rəsul Quliyev modern.az saytına müsahibəsində İslamın klassik hökmlərini, dini qaydaları inkar edən fikirlər bildirib. R.Quliyev İslamın vacib buyurduğu orucu qəbul etmədiyini, namazın "əhəmiyyətini itirdiyini" iddia edib. O, sonuncu peyğəmbərimiz olan Məhəmməd Peyğəmbər (ə.s) gerçəyini də qəbul etmədiyini bildirib. Parlamentin eks-spikerinin müsahibədə səsləndirdiyi dini qaydaları inkar edən fikirlərinə siyasətçilərin də münasibətini öyrəndik.**

Müsavat Partiyasının başqan müavini **Elman Fəttah** R.Quliyevin müsəlmançılığı aşağılamasının inanca saygısızlıq olduğunu bildirdi: "İnanclara saygı demokratiyanın əlifbasıdır. Əgər Rəsul Quliyev insanların inanclarına hər hansısa bir saygısızlıq göstəribsə, bu məsələni onun xarakterik xüsusiyyətinə yazaq. Amma əgər özü müsəlman olmadığını və yaxud da İslama qarşı olduğunu deyirsə, yenə də bu onun öz yanaşmasıdır. Bu vicdan azadlığı məsələsidir. Bir insanın mən dindar deyiləm deməsi normaldır. Bu, vicdan azadlığının tərkib hissəsidir. Amma mən müsəlmançılığa qarşıyam deməsi və müsəlmançılığı aşağılamağa çalışması inanca saygısızlıqdır. Bir sözlə, bu, demokratiya ilə tənzimlənən bir məsələdir. Bu cür saygısızlıq edibsə, bu, Rəsul Quliyevin demokratiyadan uzaq olmasının göstəricisidir".

**Ümid Partiyasının sədri İqbal Ağazadə insanların fikirlərinə hörmətlə yanaşdığını bildirdi:** "Mən hər bir insanın seçimlərinə və yaxud da məsələyə münasibətinə hörmətlə yanaşıram. Rəsul Quliyevin fikirlərini bölüşmürəm. Amma onun mövqeyinin əksinə söyləyəsi bir fikrim yoxdur".

**ADP sədri Sərdar Cəlaloğlu isə R.Quliyevin İslamın mahiyyətinin dərinliyinə varmadığını və anlamadığını dedi:** "Mən Rəsul Quliyevlə uzun müddət bir yerdə olmuşam. Onun həqiqi mənada Qurani Kərimə iman gətirməsinin şahidi olmamışam. O, Qurani Kərimə elmi və fəlsəfi nöqteyi-nəzərdən yanaşır. Halbuki Qurani Kərim bir elm və ya fəlsəfə kitabı deyil ki, elmi və fəlsəfi üsulla və metodla ona yanaşıb anlayasan. Orucun da, namazın da gərəkli və lazımlı olduğunun həm elmi, həm də ilahi sübutları var. Bir çox adamlar, o cümlədən də Rəsul Quliyev namazın, orucun, ümumiyyətlə, dini adət-ənənələrin mahiyyətinin dərinliyinə varmır. Allahın doğru buyurduğu yollar namaz qılmaq, oruc tutmaq və zəkat verməkdir. Bu üç şeyin əleyhinə çıxmaq faktiki olaraq Allahın doğru yoluna qarşı çıxmaq deməkdir. Faktiki olaraq Rəsul Quliyev Qurani Kərimə alternativ olaraq yol tətbiq edib. Amma o yol doğru yol deyil, əyri yoldur. Bəşər tarixində bu cür əyri yol təklif edən alimlər, filosoflar, cərəyanlar, məktəblər olub və hamısı da yoxa çıxıb. Yalnızca Allahın doğru yolu qiyamətə kimi davam edəcək. Rəsul müəllimin bu bəyanatı İslama görə kafirlikdir, küfrdür. Allahın əmrlərini insanların götür-qoy etməsi küfürdür".

AXP sədri Pənah Hüseyn Rəsul Quliyevin müsahibəsi ilə tanış olmadığını dedi. Əlavə etdi ki, ümumiyyətlə hər kəsin bu və ya digər dinə etiqad etmək və etməmək azadlığı var: "Mən məsələyə bu kontekstdən baxıram".

❑ **Günel MANAFLI**

# Təhsil naziri fərdi təhsillə bağlı plan hazırlayıb



Mikayıl Cabbarov

**Təhsil naziri Mikayıl Cabbarov Fərdi təhsil üzrə nümunəvi tədris planının təsdiqi barədə əmr imzalayıb. Təhsil Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən xəbərə görə, uzun müddət təhsildən kənarda qalmış şəxslərin ümumtəhsil məktəblərində təşkil olunan fərdi təhsilinə aid 2015-2016-cı dərs ili üçün tədris planı və tədris planına dair "Qeydlər" təsdiq edilib.**

Tədris planı üzrə dərslər həftədə 4 (dörd) gün təşkil edilir. Dərs məşğələlərinin müddəti 45 dəqiqədir. Dərs saatı həftədə 0,5 saat olan fənlər dərs cədvəlində qeyd edilməklə həftəaşırı tədris olunur.

Fərdi təhsilə cəlb olunmuş şəxslər dərs ili ərzində müəyyən edilmiş tətillərə ümumtəhsil məktəb şagirdləri ilə eyni vaxtda buraxılırlar.

Nazirliyin İnformasiya şöbəsinə tapşırılıb ki, bu əmrin əlavələrlə birlikdə çoxaldılıb yerlərə göndərilməsini, "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını və nazirliyin internet saytında yerləşdirilməsini təmin etsin. Əmrin icrasına nəzarət nazir müavini Ceyhun Bayramova həvalə olunub.

YENİ MÜSAVAT
N 144 (6172) 4 iyul 2015

**1991-ci il 18 oktyabr tarixində Xəzər dənizinin sol sahilində Böyük Qafqaz sıra dağları ilə Kiçik Qafqaz sıra dağları arasında, Araz çayından şimalda Azərbaycan Respublikası adlı dövlət elan olundu. Tarixdə ikinci dəfə Azərbaycan adı altında dövlət yaranırdı və bu ikinci özünü birincinin varisi elan etdi. Artıq beynəlxalq siyasət və informasiya laboratoriyalarında "Azərbaycan" və "Azərbaycan Respublikası" terminləri dövriyyəyə girmişdi.Həmin dövrdə hamının bir dərdi var idi, yeni yaranmış, öz əlimiz öz başımız məzmununu ehtiva edən respublikanı nəyin bahasına olursa, olsun qoruyub saxlamaq lazım idi.**



**Qədir ASLAN**
**Ümid Partiyası Seçki və təbliğat şöbəsinin müdiri**

# Regionda Azərbaycan məsələsi

Məlum olduğu kimi, Azərbaycan deyiləndə iki əsas nəzər nöqtəsi beynimizdə canlanır:

Birincisi, 86,6 kv km ərazinin əhatə etdiyi Azərbaycan Respublikası;

İkincisi, bütün tarixi torpaqları ilə birgə düşüncələrimizə hakim kəsilən Azərbaycan adlı geosiyasi məkan;

Fikrimcə, Azərbaycan mərkəzçilik ideyası ikinci nəzər nöqtəsi üzərindən işlənilə bilən termindir,əks halda biz öz soydaşlarımızın böyük bir qismini çıxdaş etmiş oluruq. Bu halda isə ideyanın daşıdığı tarixi, ictimai-siyasi anlam qüvvədən düşmüş olur. Beləliklə, əgər Azərbaycan Respublikasının sərhədləri xaricində daha böyük Azərbaycan varsa, deməli həmin torpaqlarda yaşayanları azərbaycanlı adlandıra bilərik. Siyahı təxminən belədir-Dərbənd azərbaycanlıları, Borçalı azərbaycanlıları, İrəvan azərbaycanlıları (İrəvan azərbaycanlıları kateqoriyasına tək Qərbi Azərbaycan türkləri deyil həmçinin erməni mənşəyə malik olanlar da daxildir), Güney Azərbaycan azərbaycanlıları.

Belə böyüklükdə Azərbaycanı vahid ideya arxasınca aparmaqda istifadə olunan bir ideya istiqaməti var idi. Həmin bu coğrafi arealda yaşayanlar içərisində superetnos faktorunu təcəssüm etdirən türkləri və türkçülüyü aparıcı mövqeyə çıxartmaq siyasəti izlənilirdi. İlkin dönəmdə bu siyasət bəzi fəsadlarla yadda qalsa da sonralar türkçülük və turançılıq ideyalarının bizimçün nə qədər mənfəətli və təhlükəsiz olduğu aşkara çıxdı. Bəs digər tərəflərin maraqları bu məsələdə üst-üstə düşürdümü? Belə ki, Rusiyanın caynağından yenicə qurtulmuş Azərbaycan elə qism siyasi ideyanın arxasınca getməli idi ki,təhlükəsizliyi təmin olunsun və az çox Rusiyanı qıcıqlandırmasın. Bunun üçün Türkçülük və Turançılıq fikirləri Rusiyanın regiona yönəlik tarixi-siyasi baxışına uyğun gəlirdi. Həmçinin gələcəkdə Türkiyənin də Avrasiya məkanına cəlb olunmasına zəmin, maraq yaradırdı. İkincisi, türkmənşəli dövlətlərin vahid blokda birləşməsi Rusiyanın qonşuluğunda olmaları və iqtisadiyyatlarının Rusiyadan asılı olmaları baxımından da əlverişli idi.Bu məsələ imperializm istəklərinin yenidən reallaşması işinə təkan verirdi. Üçüncüsü, bu prosesin gedişində bazar iqtisadi sistemilə idarə olunan vahid iqtisadi zona yarana bilərdi ki, bu həm Rusiyanın mərkəzi şəhərlərinin maliyyə mərkəzinə çevrilməsinə, həm də həmin türkmənşəli ölkələrin iqtisadiyyatına misilsiz inkişaf bəxş edə bilərdi. Lakin bu işdə digər beynəlxalq qüvvələr tərəfindən, eləcə də Rusiyanın özü tərəfindən bəyənilməyən həlledici məqamlar da var idi. İlk olaraq onu deyək ki, qərb qüvvələri Rusiyanın iştirakçılığı ilə bu məzmunda istənilən proyekti rədd edir. Əsas tələb olaraq siyasi sistemin və iqtisadiyyatın həqiqi demokratikləşməsi məsələsini önə sürür. İkincisi, bəzi digər qüvvələri bu coğrafiyada milli müstəvidə qurulacaq hər hansı birliyə qarşı mövqe tuturdu, bunu öz maraqları baxımından potensial təhlükə kimi görürdü. *(Bu baxımdan Azərbaycanın birləşməsi hər iki qüvvə tərəfindən arzuolunmaz məsələ olaraq qalır)* Rusiyanın tərəddüd elədiyi bir məsələ isə ondan ibarətdir ki,türkmənşəli dövlətlərin birləşməsi regionda demoqrafiq mənzərəni də kökündən dəyişir və gələcəkdə rus əhalisinin təbii azalması fonunda böyük təhlükəyə çevrilə bilərdi. Bundan əlavə türkmənşəli dövlətlərdə demokratikləşmə dalğasının sürətlə vüsət alacağı təqdirdə Rusiya özünün fövqəlgüc anlamını eyni sürətlə itirmək təhlükəsilə üz-üzə qalırdı.

Bütün bunları nəzərə alan hər iki tərəf Azərbaycansentrizm ideyasına və türkçülük, turançılıq ideyalarına qarşı çıxmağa başladı. Hər iki tərəf üçün regionda "Azərbaycan məsələsi" mövcud idi.

80-ci illərin sonundan başlayan Xalq Hərəkatının lideri və sonralar prezident seçilən Əbülfəz Elçibəy əldə edilən kövrək müstəqilliyi mümkün dərəcədə təhlükəsiz etmək üçün yığılmış milli enerjini Azərbaycan mərkəzçilik tezisi müstəvisində səmərəli istiqamətləndirməyə çalışırdı, bəzən müvəffəq olurdu, bəzən də yox. Azərbaycan vətəndaşları ciblərindəki qırmızı partiya biletləri qədər ictimai şüurda yer tutan "xalqlar dostluğu" elementini öz əlləri ilə yandırır, məhv edirdilər. Bu elementin yerində 70 ildən qalma qosqoca boşluq əmələ gəlirdi ki, Elçibəy bu boşluğu Vətən, millət və Bütöv Azərbaycan haqda üstün ideallarla doldurmağa çalışırdı.

Bu prosesi bacardıqca sürətlə axara salmaq lazım idi. Çünki bir xalq olaraq biz özümüzə lazım olan bir qismət çörəyi və suyu hardan olsa və harda olsa tapa bilirik,ama Azərbaycan haqda ideallar hər zaman şeirlərdə,dastanlarda və s. romantik fikir başlanğıcları olaraq qalır. Lakin beynəlxalq güc mərkəzlərinin xüsusilə də sərhəd qonşularımız olan və tarixi düşmənçilik mövqeləri ilə seçilən İran və Rusiyanın bizim ölkə barəsində təsəvvürləri bir təzislə məhdudlaşırdı- Qafqazda "Azərbaycan məsələsi"ni həll etmək.

Deməli, ölkə daxilində Azərbaycansentrizm meyllərinin artması ilə yanaşı ölkə xaricində "Azərbaycan məsələsi"nin həlli üçün dünyanın siyasi mətbəxində durmadan reseptlər hazırlanır və hətta bir qismi artıq praktiki həyata keçirilir. Respublika vətəndaşlarının Azərbaycan dərdini fikirləşməsi və bu istiqamətdə mütəşəkkil fəaliyyət göstərməsi bütün qonşularımız üçün arzuolunmaz nəticələrə gətirib çıxara bilərdi. Xüsusilə Rusiya üçün belə bir təlatümlü dövrdə Cənubi Qafqaz regionunda Azərbaycan mərkəzçilik ideyasının təşəkkül taparaq vüsət alması Çeçenistan olayından sonra ikinci qorxulu yuxu kimi idi. Məsələnin məğzi ondadır ki, tarixən ərazisi iki, üç, beş yerə parçalanan yeganə türkmənşəli ölkə Azərbaycandır. Geosiyasi mövqeyinə,dini inancına və mənşə və dil göstəricilərinə, mədəni-mənəvi ənənələrinə görə müxtəlif bloklara birləşməsi imperializmə ciddi zərbə vuracaq qədər nətcə verən proses Azərbaycansentrizmin sürətli inkişafı ilə reallaşa bilərdi. Rusiya və digər qüvvələr yalnız bir qismi sadalanan məqamlarla əlaqədar hər vəchlə Azərbaycan mərkəzçiliyin önünə keçir, badalaq vururdular. Bu səbəbdən Azərbaycan böyüklükdə dərdin yerinə xalqa daha kiçik bir dərd vermək lazım idi ki, proses ləngisin. Dağlıq Qarabağ dərdi bu istiqamətdə işə yaradı. Ölkə ictimaiyyəti, prezidentindən tutmuş sıravi vətəndaşına qədər hər kəs Azərbaycan quruculuğu üçün əlində işlətdiyi aləti yerə atıb, Dağlıq Qarabağı xilas etmək uğrunda savaşa qoşuldu.

Müharibə və iqtisadi çətinliklər fonunda az çox ziyalı hesab edilən qruplar dalğa-dalğa Avropaya və Amerikaya beyin axını etməyə,digərləri isə Rusiyaya pul qazanıb ailəsini dolandırmağa üz tutdular. Yerdə qalırdı Qarabağdan gələn 1 milyon məcburi köçkün və Qərbi Azərbaycandan köçürülən 200 min qaçqın və digər sakinlər. Bu insanları isə məlum olduğu kimi Azərbaycan dərdindən çox öz dərdləri- harda yerləşmək,hardan qazanmaq və necə sağ qalmaq fikri məşğul etmişdi. Bir sözlə desək, Rusiya və digər qüvvələr ümumi razılığa gələrək regionda "Azərbaycan məsələsini" birinci mərhələ üçün həll etmiş oldular. Bəs Azərbaycan mərkəzçilik fikirləri, idealları necə oldu? Bu ideyanın atası sayılan Elçibəy Naxçıvanda ucqar dağ kəndindən belə Bütöv Azərbaycan ideallarını, "hər şey Azərbaycan naminə" fikirlərini yorulmadan təbliğ etməkdə idi.Azərbaycanlılar isə bu ideyanın avazını xoşlayırdılar. Lakin nəyi necə etmək lazım olduğunu heç kim bilmirdi. 1997-ci ildə paytaxta dönən Elçibəy ideyanı daha ardıcıl və inadlı şəkildə təbliğ etməyə və müdafiə etməyə başladı. Paytaxtda 4 il davam edən israrlı Azərbaycanmərkəzçilik mübarizəsi 2000-ci ildə Elçibəyin vəfatı ilə yiyəsiz qalmış oldu.




## Ümid Partiyasında mühacir yazarla görüş olacaq

**İyulun 6-da saat 17:00-da Ümid Partiyasının qərargahında İsveçdə yaşayan soydaşımız, yazar Eluca Atalı ilə görüş keçiriləcək. BU haqda Partiyanın İctimaiyyətlə əlaqələr və xaricdə yaşayan soydaşlarımızla iş üzrə sədr müavini Rüfət Muradlı məlumat verib. R. Muradlı bildirib ki, görüşdə Eluca Atalının bu yaxınlarda Türkiyədə işıq üzü görən "Atlara kurşun sıkmayın", "Azadlıq hekayələri" adlı kitablarının təqdimatı olacaq və arzu edən hər kəs qatıla bilər.**

Qeyd edək ki, Eluca Atalı əslən Azərbaycandan olan və hazırda İsveçdə yaşayan yazıçılarımızdandır. Onun son illər milli məsələlər, özəlliklə Bütöv Azərbaycan məfkurəsi, Güneydə yaşayan soydaşlarımızın sorunlarını əks etdirən kitabları böyük rəğbətlə qarşılanıb.

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**



# Uyğurların milli qurtuluş günü

Zamin HACI
zaminhaci@gmail.com

"Soltan ağa, əgər mən bu erməniləri sənin başından həmişəlik rədd eləsəm, mənə nə verərsən. Mən onların başına bir toy tutum ki, ta nə qədər sənin canın sağdı, olar Bərgüşad kəndinə ayaq basmasınlar".

*(Cəlil Məmmədquluzadə, "Kişmiş oyunu")*

**Bugünlərdə bir zəhmətkeş yoldaşla xırda söhbətimiz oldu. Adam dedi ki, yaxın bir ayda Qarabağ məsələsində ciddi dönüş olacaqdır. Bunu nəyə əsasən söyləyir sualıma mənalı şəkildə gülümsəyib (yəni "kül başına, özün də jurnalistsən, ancaq heç zad bilmirsən") bircə kəlmə dedi: "Baxarsan". Sonra dedi səncə Ukrayna güclü ölkədir, yoxsa Ermənistan? Mən dedim əlbəttə Ukrayna. Açığı yenə anlamadım bunu niyə soruşur. Amma izahata keçəndə aydın oldu yoldaş Qərbə nifrət edir. Dedi ki, Ukraynanı qarışdırıb torpağını rusa verən Amerika olmuşdur. Amerika İraqı, Liviyanı da pis günə salıb. Ümumiyyətlə, planetin əsas bəlası amerikanlar imiş. Tamam ayrı səbəblərdən mənim də Amerikadan zəhləm gedir, o üzdən ürəyimdə razılaşdım, amma bir sual verməkdən özümü saxlaya bilmədim: "Bəlkə İmam Hüseyni də Amerika öldürmüşdü?". Cavab şedevr sayılmaq haqqına malikdir: "Əlbəttə! Müaviyə kim idi? İngilis agenti!". Ta mübahisə eləmədim, çıxdım getdim.**

Ümumən bizim millətin geopolitik məsələlərdə çox böyük bacarığı vardır. Tarixən belə olub. Süfrədəki plovun altında toyuğu görə bilməyən mollalar İsfahanda aşan arabanın altına minlərlə kilometrdən "çiyin veriblər". Polis çavuşuna "Nə qulluq edim, rəis" deyə yaltaqlanan adamlar növbəti cümlədə ABŞ quru qoşunları komandanını iki şaqqa eləyib Sumqayıt yolundakı kafelərdən asıblar. Bir növ, bizdə uzaqgörənlik var, burnumuzun ucunu isə görmürük. Prinsipcə, burunun ucunu görməyin mənası da yoxdur - orda nə var ki? Uzağı burun suyu. *(Çox iyrənclik olmasın deyə təsviri qısaltdım).* Əsas odur uzağı görəsən. Bu səbəbdən bizdə geopolitiklərin sayı politiklərin sayından iki dəfə çoxdur. İtə daş atırsan geopolitikə dəyir. Hərəsinin də öz sahəsi var, maşallah. Biri Rusiyanı dağıdır, o biri İranı. Başqası Amerikaya prezident seçir, bir ayrısı Ermənistanda neçə adamın qaldığını yüksək dəqiqliklə söyləyir, elə bil indicə Vartanı sayıb gəlibdir. Planetə sərf elədiyimiz enerjinin onda birini Salyan rayonu Noxudlu kəndinə sərf eləsəydik indi ora NyuYork kimi bir şəhər idi.

Bizim dərdinə yandığımız, halına ağladığımız millətlərdən biri də uyğurlardır. Vaxtaşırı, dövri olaraq biz azərbaycanlılar uyğurların milli azadlıq hərəkatına yüksək səviyyədə dəstək veririk. Hətta Çin Xalq Respublikasının "kitayski" rəhbəri Szyan Zemin *(ola bilər indi ayrısıdır, amma prinsipcə çinlilər hamısı bir-birinə oxşayır, həm də bunun adı mənim adımla səsləşir, yola verin getsin, hər boş şeydə səhv axtarmaq lazım deyildir)* hər həftə dövlət işlərini planlaşdıranda katibədən birinci bunu soruşur ki, sən Allah, poçta bax gör azərbaycanlılar uyğurların azadlığını tələb edən növbəti bir kisə teleqramı göndərməyiblər?

Azərbaycanın uyğur xalqına doğma münasibəti təsadüfi deyil. Bizim dillərimiz çox bənzərdir. Hətta yadımdadır, sovet dövründə bir kitab almışdım, "Rus-uyğur ata sözləri lüğəti" adlanırdı, heyrətə gəlmişdim ki, uyğurların ata sözlərinin az qala hamısı bizim dildə var. Hər iki xalqın kökündə oğuz türkləri böyük rol oynamışdır.

Bundan başqa, Əbülfəz Elçibəyin hakimiyyəti dönəmində də bizim əsas dövlətçilik məqsədlərimizdən biri Ağdərədən keçib Çinə girmək, uyğurları azad eləmək idi. Heyf, yaramaz surətkimilər imkan vermədilər. Bəlkə biz onda uyğurları azad eləsəydik, müəyyən təsirlə indiyə yakut qardaşlarımızın Saxa Respublikası da müstəqilliyə qovuşardı.

Uzun sözün qısası, bu həftə yenə uca millətimizi əsas narahat edən problemlərdən biri çinlilərin uyğurlara əzab verməsi olmuşdur. Gənclərin millətçi qanadı yığışıb Çin səfirliyinə etiraz etmişdir. Deyirlər çinlilər uyğurlara oruc tutmağa imkan vermir, zorla yedizdirirlər. Ar olsun. Halbuki biz çinlilərə şərait yaratmışdıq, bir ara küçədə gəzib "üs manata" it oyuncağı, ağcaqanad bişirən satırdılar. Gərək dövlət səviyyəsində də etiraz olsun, Çinə müharibə elan edək. Bundan sonra Çin də Ermənistan kimi boşalar. Plan çoxdur, hamısına yer qalmadı.

# Azərbaycan-Qərb savaşında Rusiya amili - kim qazanacaq?

## Mehman Əliyev: "Bakı nümayiş etdirmək istəyir ki, onun Qərbə məhəbbəti heç də ürəkdən gələn deyil, məcburidir..."

**Azərbaycanla bir sıra aparıcı Qərb təşkilatları və iri dövlətlərin münasibətlərində yaşanan konfrontasiya şəraiti artan tendensiya üzrə davam edir. Bəzi müşahidəçilər hesab edir ki, rəsmi Bakının siyasi motivlərlə həbs edildiyi bildirilən şəxslərin azad olunması və demokratikləşmə ilə bağlı tövsiyələrə, qətnamə və çağırışlara sərt reaksiya verməsi qarşılıqlı şəkildə gərginliyin artmasını şərtləndirən amillərdəndir.**

Belə vəziyyətin haradək davam edəcəyi, sonucun necə olacağı isə hələlik kimsəyə bəlli deyil. Lakin "Yeni Müsavat"ın əldə etdiyi bilgilərə görə, vəziyyətin dramatikliyi, xüsusilə də Azərbaycanın beynəlxalq arenada təklənmə xəttini yürütməsi hətta hakimiyyətin öz daxilində də narahatlıqları artırıb. İddialara görə, iqtidar daxilindəki bəzi çevrələr gərginliyin bundan o tərəfə davamını hakimiyyətin özü üçün riskli sayır və kəskin reaksiyaların bumeranq effekti verəcəyindən ehtiyatlandıqlarını ayrı-ayrı çevrələrdə etiraf edirlər. Bəzi ekspertlərin sözlərinə görə, son illərdə ilk dəfədir ki, xarici faktor Azərbaycanda hakimiyyət dəyişikliyi üçün mühüm amilə çevrilib və ölkə iqtidarı bu durumdan ciddi şəkildə ziyan çəkə bilər. Avropa Şurası Parlament Assambleyasının son qətnaməsi, ABŞ Dövlət Departamentinin Azərbaycanı növbəti dəfə kəskin tənqid etməsi, rəsmi Bakının Londona nota verməsi, ayrı-ayrı nüfuzlu Avropa QHT-lərindən Azərbaycan iqtidarını sərt tənqid edən hesabat və bəyanatları fonunda yalnız vəziyyətin mürəkkəbliyindən danışmaq mümkündür.

İyulun 5-də Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının yay sessiyası da işə başlayır. Helsinkidə keçiriləcək illik sessiyanın plenar iclasında ATƏT-in Bakı Ofisinin bağlanmasından da danışılacağı istisna edilmir. Məlumata görə, bununla bağlı ciddi müzakirələr aparılacaq. Məsələ ilə bağlı modern.az-a danışan Azərbaycanın ATƏT PA-dakı nümayəndə heyətinin üzvü Eldar İbrahimov deyib ki, bu məsələnin qalxması mümkündür: "Ola bilsin ki, müəyyən fikirlər səslənər və o zaman da biz onların cavablarını verəcəyik. ATƏT və digər beynəlxalq təşkilatlar ölkələri tənqid etməyə öyrəşiblər, o cümlədən də Azərbaycanda keçirilən yüksək səviyyəli I Avropa Oyunlarını görür və qısqanclıq keçirirdilər, paxıllıq edirdilər. ATƏT Parlament Assambleyasında bizə qarşı münasibət hər zaman yaxşı olub. Orada dostlarımız çoxdur, münasibətlərimiz var. Bizi də Qarabağ konflikti ilə əlaqədar orada dəfələrlə dəstəkləyiblər".

**Qeyd edək ki, Milli Məclisin vitse-spikeri Bahar Muradova qəzetimizə müsahibəsində Qərblə gərgin münasibətlərin hakimiyyət dəyişikliyinə aparacağını istisna edib.** "İstənilən iqtidar üçün, istənilən hakimiyyətdə olan siyasi qüvvələr üçün onu seçən vətəndaşlar, seçicilər, onun təmsil etdiyi, xalqın ona olan münasibəti əsasdır. Əlbəttə, beynəlxalq aləmdəki, ölkə ətrafındakı mövcud durum, ona münasibət, rəsmi siyasətə olan münasibət də az əhəmiyyətli deyil. Bunu vurğulamaqla yanaşı əsas həlledici məqamın seçicilərin münasibətinin olduğunu qeyd etməliyik. Ona görə də kimlərinsə Avropa Parlamentində və yaxud Avropa Şurasında məhdud sayda insanların - Azərbaycan əleyhinə danışanların sayı bir çox hallarda heç 30-35 nəfəri də keçmir deməsilə Azərbaycanda hakimiyyət dəyişikliyinin olub-olmaması ilə bağlı konkret fikir yürütmək olmaz", -deyə Muradova bildirib.

**"Turan" İnformasiya Agentliyinin direktoru, siyasi analitik Mehman Əliyev isə "Yeni Müsavat"a bildirdi ki, Putin yenidən hakimiyyətə qayıdandan sonra Azərbaycanda anti-Amerika kampaniyası başlayıb:** "Necə ki, Kremldə bu kampaniya şiddətlənir, eyni münasibət bizdə də formalaşır. Sonuncu şiddətli kampaniya bu ilin aprelində başladı və Qərbə qarşı həmin kampaniya davam edir. ABŞ-ın müstəqillik günündə Azərbaycan dövlətinin gənclər və idman nazirinin müavini səviyyəsində iştirakını o kampaniyanın davamı kimi də qiymətləndirmək olar. Mən hesab edirəm ki, bu kampaniyanın arxasında daha çox Rusiyaya xoş gəlmək, Rusiyadan ehtiyatlanmaq amili var və bütün bunlar Qərblə davranışlara təsir edir. Azərbaycan tərəfi göstərmək istəyir ki, o, Amerika, Qərb tərəfdarı deyil, onun Qərblə münasibətləri ehtiyacdan doğur, bu, qəlbdən gələn münasibət deyil".

**M.Əliyev hesab edir ki, hakimiyyət dəyişikliyində xarici faktorlar həmişə rol oynayıb:** "Bu rolu Azərbaycanda da, Ermənistan, Gürcüstan, Rusiya və digər ölkələrdə də müşahidə etmişik. Elə SSRİ-nin dağılması göstərdi ki, o boyda imperiya ABŞ-a uduzdu. Azərbaycan, sadəcə olaraq, keçmiş imperiyanın çox kiçik bir qalığıdır. Sadəlövhlük olardı ki, Azərbaycan kimi balaca ölkə o cür imperiyanı çökdürən güclə savaş aparacaq. Sadəcə olaraq burda başqa problemlər var. Burada qlobal qarşıdurma var və o çərçivədə də Azərbaycan təhlükəsizliyini təmin etməyə çalışır. Ona görə də Bakı Amerikadan qaçdığını, Rusiyaya tərəf istiqamətləndiyini nümayiş etdirmək istəyir. Son illərin hadisələri, Ukraynada baş verənlər, elə Qarabağ ətrafında baş verənlərdən görünür ki, Rusiyanın təsirləri müsbət istiqamətə deyil. Bu amil çox vacib rol oynayır və Amerika tərəfi də bunu başa düşür".

**Siyasi şərhçi Qərbin Azərbaycana qarşı sərt mövqedən çıxış etdiyini düşünmür:** "Deyək ki, qətnamə qəbul olunur, nə olsun? O qədər belə qətnamələr olub ki? Yaxud "Azadlıq" radiosu bağlandı, ona formal qiymət verildi, yaxud həbslərə ənənəvi reaksiyalar oldu. Digər tərəfdən, ATƏT-in ofisi xeyli Avropa ölkələrində, yaxud MDB ölkələrində yoxdur. Heç Gürcüstanda da fəaliyyət göstərmir. Mən hesab etmirəm ki, Qərb ATƏT ofisinin olmamasını ciddi problem sayır. Maraqlar ondan ibarətdir ki, Azərbaycan müstəqil olaraq qalsın, yeni problemlər yaranmasın".



**M.Əliyev hesab etmir ki, Azərbaycan hakimiyyətini dəyişmək istəyir:** "Bu gün müxalifətin də rolu o qədər də əhəmiyyətli deyil. Əksinə, hakimiyyət özü xalqla üz-üzə qalacaq. Necə ki, bu gün Ermənistanda eyni proseslər baş verir. Desək ki, ordakı hadisələri müxalifət törətdi, düzgün olmazdı. Yaxud xalqın bu prosesləri özünün etdiyini deməyimiz də doğru olmaz. Amma fakt odur ki, xalq küçələrə çıxdı. Bax, bu proses Azərbaycanda gözlənilir. Oyunlarla camaatın başını bir az qatdılar, amma bu, müvəqqəti vəziyyətdir. Böhran dərinləşir və bununla bağlı cavab vermək, insanları razı salmaq lazım olacaq".

**Ekspert əlavə etdi ki, Qərblə konfrantasiyanın nə qədər çəkəcəyi Rusiya ilə münasibətlərdən asılıdır:** "Bizim anti-Qərb əhval-ruhiyyəmiz daha çox Rusiyanın böhran dövrlərində, ruslar qəzəblənəndə güclənir. Bu da onunla bağlıdır ki, Rusiyanın özünün Qərblə problemləri yaranır. 2008-ci il Gürcüstan hadisələrindən sonra da Azərbaycan şimaldan hədələrə məruz qalmışdı, Dik Çeyni o vaxt şəxsən Bakıya gəldi, Azərbaycana dəstək verdi. O zaman bildirdilər ki, Qarabağ tamam başqa məsələdir, Azərbaycanın müstəqilliyi tanınır, qorunacaq. O zaman da ruslar tərəfindən mesajlar verilirdi ki, növbəti hədəf Azərbaycan olacaq. O zaman danışıqlar yolu ilə birtəhər vəziyyətdən çıxmaq mümkün oldu. İndi həmin vəziyyət yenə yaranıb. Bu məsələ Rusiyanın özü böhrandan çıxmağa başlayana, yəni 2016-17-ci ildən sonraya qədər uzanacaq. Azərbaycan tərəfi daha çox nümayiş etdirmək istəyir ki, onun Qərbə məhəbbəti heç də ürəkdən gələn deyil, bu, məcburidir. Yəni bu, geosiyasi məsələlərə bağlı mövqedir, məcburiyyətdən irəli gəlir".

❑ **Cavid TURAN**

YENİ MÜSAVAT
N 144 (6172) 4 iyul 2015

**"Ötən gün axşam Odessanın "U Angelovıx" kafesinə partlayıcı atılıb. Belə təxribatları həyata keçirmək ona görə asandır ki, Odessa gecələr çox pis işıqlandırılır. Bu gün axşam biz şəhər meri ilə Odessa küçələrinin işıqlandırılması, bölgənin "İşıq şəhərinə" çevrilməsi planlarını müzakirə edəcəyik. Bundan başqa, bütün küçələrdə, xüsusən əhalinin çox toplaşdığı ərazilərdə kameralar quraşdırılmasına başlayacağıq. Avqustda işə başlayacaq yeni patrullar və daxili işlər orqanları rəhbərliyi ilə biz Odessada qayda-qanun yaradacağıq. Bu arada, axşam "U Anqelovıx"da çay içməyə gedəcəm, həmrəylik göstərmək istəyənləri kafeyə dəvət edirəm".**

# Odessada II Batumi projesi

## Qərbin adamı Mixail Saakaşvili Ukrayna oliqarxları ilə kəllə-kəlləyə gəlib










Bu sözlər Odessa qubernatoru Mixail Saakaşvilinin sonuncu facebook statuslarındandır. Sosial şəbəkə istifadəçiləri Gürcüstan eks-prezidentinin yeni vəzifəsində gördüyü işlərlə bu səhifədən tanış ola bilir. Görünən odur ki, Saakaşvili bir çox liderlər kimi eks-vəzifə dönəmini sakit keçirmək niyyətində deyil.

Avromaydan dönəmində Ukrayna müxalifətinə güclü dəstək verən Saakaşvili hakimiyyət dəyişikliyindən bir müddət sonra prezident müşaviri postuna gətirildi. Ukraynada hər kəs onu "ABŞ-ın Kiyevdəki əli" kimi qəbul edir. Vətəndaşların çoxu inanır ki, bu "əl" bir zamanlar Gürcüstan üçün etdiyi böyük işləri Ukrayna üçün də etmək iqtidarındadır. ABŞ-ın siyasi hakimiyyəti ilə özəl münasibətləri, üstəlik, gerçəkləşdirmək istədiyi projeləri çox ustalıqla təkcə ölkənin deyil, dünyanın diqqət mərkəzinə gətirmək bacarığı Saakaşvilinin Ukraynada da başarılı olacağına inamı artırır.

Qərb-Rusiya qarşıdurmasının "dava meydanı" olan Ukraynanın durumu ağırdır. Krımın itkisi, Donetsk və Luqans vilayətlərinin Rusiyadan dəstək alan separatçıların nəzarətinə keçməsi, beynəlxalq səylərə baxmayaraq silahlı qarşıdurmanın davam etməsi, bu fonda iqtisadiyyatın çöküşü ölkədə böhranlı vəziyyət yaradıb. Beynəlxalq maliyyə institutlarının ciddi dəstəyinə baxmayaraq ölkənin böhrandan çıxması üçün daxili potensialı hərəkətə gətirmək vacibdir. Bunun üçünsə Mixail Saakaşvili kimi bacarıqlı, təcrübəli, üstəlik, geniş əlaqələri olan kadrlara ehtiyac var.

Ukrayna mediası yazır ki, iqtisadiyyatın dirçəldilməsi ilə bağlı prezident yanında keçirilən müşavirələrin birində Saakaşvili liman şəhərlərin inkişafına xüsusi diqqət ayrılmasının, Qara dəniz sahili boyu turizmin inkişaf etdirilməsinin vacibliyindən danışıb. Bir zamanlar Batumi üçün gördüyü işləri misal gətirən Saakaşvili deyib ki, təxminən 4 il ərzində görülən infrastruktur yenilikləri Gürcüstanın dövlət büdcəsinə turizmdən gələn gəlirləri 60 dəfə artırıb. 4 il üçün bu sözün əsl mənasında fantastik rəqəmdir. Elə həmin müşavirədə Saakaşvilinin Qara dənizin ən böyük liman şəhərlərindən olan Odessaya qubernator təyin edilməsi ideyası yaranıb və Saakaşvili Odessa üçün də qol çırmalamağa hazır olduğunu deyib. Mayın 31-də prezident Petro Poroşenko Mixail Saakaşvilinin Odessa qubernatoru vəzifəsinə təyin edilməsi ilə bağlı fərman imzalayıb.

Odessaya gəldiyi ilk gündən Saakaşvili xalqın arasındadır. Gah bazarları gəzir, gah küçələrdə sadə vətəndaşlarla görüşür, gah məmurları arxasına salıb küçələrdə görüləcək işlərlə bağlı onlara konkret göstərişlər verir. Çılğın projelər müəllifi Saakaşvili eyni zamanda bacarıqlı piarçıdır. Hər addımını, hər görüşünü ictimaiyyətə açıq saxlayan qubernator bu yolla vətəndaşa "hər zaman yanınızdayam, problemlərinizlə birbaşa məşğulam" mesajını da vermiş olur. Maraqlı və diqqət çəkən faktlardan biri də Saakaşvilinin ukraynalılarla ana dillərində danışmasıdır. Dünyanın hər yerində vətəndaş onunla doğma dilində danışan məmura etimad edir.

Saakaşvilinin görəcəyi işlər çoxdur. Başı daha çox savaşa, ölkəyə beynəlxalq dəstəyin gücləndirilməsinə və avrointeqrasiya qismən də mərkəzdəki korrupsiya qaynaqlarını yox etməyə qarışan Petro Poroşenko iqtidarı regionlarla ilgilənməyə o qədər də vaxt ayıra bilmir. Bu isə regionlarda çalışan məmurların korrupsiyaya, rüşvətə qurşanmasına səbəb olur. Mixeil Saakaşvilinin üstünlüyü ondandır ki, Poroşenko ona istənilən sahədə qayda-qanun yaratmaq üçün geniş səlahiyyətlər verib. Saakaşvili Odessanın xırda problemini belə ölkə miqyasına qaldırıb dərhal çözüm tələb edə bilir. Onun təyinatının ilk günlərində vilayətin rəhbərliyi ilə keçirdiyi müşavirədə verdiyi sərt mesajlar da bunun sübutudur. Hüquq-mühafizə orqanlarının rəhbərlərini ağ yuyub qara sərən qubernator onları canlı efirdə reket adlandırdı, iş prinsiplərini dəyişməsələr vəzifələrini itirəcəklərini dedi.

Saakaşvilinin bunca sərt danışması isə səbəbsiz deyildi. İş adamları qubernatora demişdilər ki, hüquq-mühafizə orqanlarının rəhbərliyi onları çox sərt şəkildə sıxışdırır, rəsmi vergilərlə yanaşı, onlardan qanunsuz ödəmələr tələb edir, verməsələr, saxta ittihamlarla cinayət məsuliyyətinə cəlb ediləcəkləri ilə hədələyir. Müşavirəyə söylənənləri təsdiq edən sənədlərlə gələn Saakaşvili faktiki olaraq hüquq-mühafizə orqanları rəhbərlərinə ağızlarını açmağa, özlərini müdafiə etməyə imkan vermədi. Son 2 gündə isə bəlli olub ki, Saakaşvili bölgədə asayişi təmin etmək üçün yeni patrul xidməti yaradır. Qubernator onlara yüksək əmək haqqı vəd edib.

Saakaşvili iyulun 2-də "Euronews"a verdiyi müsahibədə deyib ki, onun üçün bir nömrəli məsələ vilayətə xarici investorları cəlb etməkdir. Çünki bu gün ölkədə Odessanın inkişafına ayrılacaq 1 qrivna belə yoxdur: **"İnsanlar işsizdir, sosial vəziyyət acınacaqlıdır, təcili iş yerləri yaradılmalıdır. Biz Qara dənizin digər bir limanı - Batumi üçün oxşar layihələri həyata keçirmişik. Odessa həm tarixi, həm də dəniz turizmi üçün əlverişli bölgədir. Məqsədimiz cəmi 1 il sonra - 2016-cı ilin yayında Odessaya gələn turistlərin sayını bir neçə dəfə artırmaqdır. Bunun üçün bölgəyə ciddi yatırımlar cəlb edilməlidir. Bu məsələdə ilkin şərt əlverişli investisiya mühitinin yaradılmasıdır. Əslində müddət az, görüləsi işlər isə həddən artıq çoxdur. Ancaq mən bir məsələyə inanıram - hər hansı məmur öz sahəsinin inkişafı ilə bağlı qarşısına məqsəd qoyanda və dövlət onun arxasında dayananda həmin işləri gerçəkləşdirmək mümkün olur".**



Mixail Saakaşvili deyir ki, ölkəyə xarici turistlərin cəlb edilməsində ilk addım hava məkanının rəqabətə açıq olmasıdır. Bu sahədə Ukraynadakı durum o qədər də ürəkaçan deyil - monopoliya rəqabətə imkan vermir. Daha doğrusu, vermirdi, çünki Saakaşvilinin təşəbbüsü ilə Dövlət Aviasiya Xidmətinin rəhbəri, başqa sözlə, monopoliyanı yaradan əsas fiqur Denis Antonyuk vəzifəsindən azad edilib. Bunun ardınca, Odessa hava limanında aviasiya benzininin qiyməti 30 faiz ucuzlaşıb. İndi burada aviasiya benzini Kiyevin Borispol hava limanı ilə eyni qiymətə satılır. Nəticə artıq biletlərin qiymətində də görünür. Son 15 gündə Odessaya istiqamət alan uçaqların biletləri 50 faiz ucuzlaşıb. Ancaq qubernator nəticədən hələ də razı deyil. O, facebook statusunda yazır: **"Dövlət Aviasiya Xidmətinin rəhbəri ilə bağlı qərar çox doğru qərardır. Bu o deməkdir ki, oliqarxsızlaşdırma proqramı yalnız gözəl şüar yox, real siyasətdir. "Açıq səma" layihəsinə davam! Xalqın qanını sorduğunuz bəsdir! Neft məhsulları Odessa limanından daşınır. Ona görə də bizdə qiymətlər Kiyevdəkindən ucuz olmalıdır. Mən bununla bağlı Milli Təhlükəsizlik Nazirliyinə müraciət edəcəm, qısa zamanda digər yanacaq şirkətlərinin Odessaya buraxılmasını tələb edəcəm. Bu, digər oliqarxlara da mesajdır. Onlar anlamalıdırlar ki, öz ciblərinə, ya da vəzifə və pul hərisi olan konkret adamlara deyil, xalqın maraqlarına qulluq eləməlidirlər".**

Qərb, xüsusən ABŞ Saakaşviliyə yeni işində hər cür dəstək verəcək. Qubernatorun artıq infrastruktur layihələri üçün bir neçə Qərb şirkəti ilə danışıqlara başlaması, dünya liderləri sırasında beynəlxalq tədbirlərə dəvət edilməsi Qərbin eks-prezidentə postsovet məkanının əsas dayaqlarından biri kimi baxdığını sübut edir.

Qəribəsi odur ki, Ukraynada əl üstündə saxlanan Mixail Saakaşvili hələ də ölkəsinə buraxılmır. Gürcüstanda onun haqqında dövlət əmlakını mənimsəmə ittihamı ilə qaldırılan cinayət işi qüvvədədir. Hakimiyyət dəyişikliyindən sonra öz yolunu tapmaq üçün vurnuxan Gürcüstan hələlik "Saakaşvili problemi"ni çözə bilmir. Problemin çözülməsini əngəlləyən yalnız Rusiya faktoru deyil - rüşvətxorluğa və korrupsiyaya qarşı mübarizə aparan Mixail Saakaşvili ölkədə özünə xeyli düşmən qazanıb. Post-Saakaşvili dönəmində yenidən əl-qol açan həmin qüvvələr Saakaşvilinin qara-piarını bir an belə dayandırmırlar. Qara-piar hətta onun Gürcüstandakı komandasının içərisinə nüfuz edir - partiyasında parçalanmalar yaradır. Mart ayında keçirilən 50 minlik mitinqdən sonra hələlik Saakaşvili tərəfdarları hakimiyyətin geri çəkilməsi üçün ciddi addım ata bilməyiblər.

Bu gün həm Gürcüstanda, həm də Ukraynada necə qiymətləndirilməsindən asılı olmayaraq Mixail Saakaşvili iş başındadır. Belə görünür ki, postsovet məkanında Qərb-Rusiya qarşıdurması davam etdikcə, o, Qərbin əsas siması kimi vitrində olacaq.

❑ **Aygün MURADXANLI**

YENİ MÜSAVAT
N 144 (6172) 4 iyul 2015

# Səfirləri işdən qovan azərbaycanlı biznesmen

## Milyarder Fərhad Əhmədovun çilingərlikdən neft maqnatına qədər gedən həyat yolu

**ABŞ-ın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Metyu Brayza və onun rusiyalı həmkarı Vasili İstratov "Teymur Əhmədov adına AzNar" QSC-nin Direktorlar Şurasının üzvü vəzifəsindən azad edilib. Bu barədə "Turan" agentliyi məlumat yayıb. Xəbərdə qeyd olunur ki, bu barədə qərar ümumi yığıncaqda qəbul edilib. Belə ki, ümumi yığıncaqda "Teymur Əhmədov adına AzNar" QSC-nin Direktorlar Şurasının ləğvi barədə qərar qəbul edilib. Qanunvericiliyə əsasən, təsisçi sayı 50-dən az olan şirkətlərdə Direktorlar Şurası olmaya bilər. Direktorlar Şurasına sabiq səfirlərdən başqa Fərhad Əhmədov və Kristos Arvanitakis də daxil idi.**

Qeyd edək ki, şirkətin səhmlərinin 99,94%-i RF-də yaşayan milyarder Fərhad Əhmədova məxsusdur. Mətbuatda açıqlanan 2014-cü il üçün hesabatda bildirilir ki, ötən il nar və meyvə şirəsi istehsal edən şirkətin 32,4 min manat mənfəəti olub. Mənfəət vergisi ödənildən sonra qalan 23,3 min manat dividentlərə yönəldilib.

Ancaq təbii ki, bu xəbərin ən çox diqqət çəkən hissəsi iki keçmiş səfirin işdən azad edilməsi faktı idi. Dünyanın iki qüdrətli ölkəsinin Azərbaycandakı sabiq səfirlərini işdən çıxaran azərbaycanlı iş adamı və onun biznes fəaliyyətinə maraq yaranır. Əcəba, səfirləri işə götürən və sonra işdən azad edən azərbaycanlı iş adamı kimdir?

Fərhad Teymur oğlu Məmmədov 1955-ci il sentyabrın 15-də Bakıda anadan olub. Əslən Qubadlı rayonundandır, ancaq atası Göyçay konserv zavodunun direktoru olduğu üçün uşaqlığı bu rayonda keçib. Ancaq F.Əhmədov Azərbaycanı çox erkən, 15 yaşı olarkən tərk edir. 1969-cu ildə Moskvaya gələn F.Əhmədov texniki peşə məktəbinə daxil olub, çilingər ixtisasına yiyələnib. Hərbi xidmətdən qayıdandan sonra - 1977-ci ildə Skryabin adına Veterinarlıq Akademiyasına qəbul olunub, mallar və əmtəəşünaslıq ixtisası üzrə təhsil alıb. Daha sonra Qubkin adına Neft İnstitutunda aspiranturanı bitirib.

1986-cı ildə "yenidənqurma" başladıqdan sonra F.Əhmədov ticarət sahəsinə baş vurur və xarici ölkələrə xəz-dəri məmulatları ticarəti ilə məşğul olmağa başlayır. Həmin il Londona köçür və burda bir müddət xəz satışı üzrə menecment kimi fəaliyyət göstərdi. Görünür, burda birinci ixtisasını Baytarlıq Akademiyasında almasının rolu olub. Ancaq Londonda F.Əhmədov təhsilini daha da təkmilləşdirir və London Yüksək İqtisadiyyat Məktəbinə daxil olur.

Ancaq bu dövrdə Yaşıllar Hərəkatının təşkil etdiyi aksiyalar nəticəsində Rusiyadan idxal olunan heyvan xəzlərinə tələbat azalmağa başlayıb. Bundan sonra F.Əhmədov neft biznesinə girişib. Əvvəlcə neft-qaz yataqlarının istismarı ilə məşğul olan ingilis şirkətlərində menecer kimi fəaliyyətə başlasa da, bir qədər sonra, 1987-ci ildə özünün "Tansley Trading Ltd" adlı şirkətini yaradır. Bu şirkət neft və neft məhsulları bazarında ticarət


Fərhad Əhmədov

əməliyyatları həyata keçirir, SSRİ-dən neft və neft məhsulları idxal edir və həmçinin "Qazprom" şirkətinə avadanlıqlar satırdı.

1989-cu ildə F.Əhmədov Azərbaycan Beynəlxalq Neft Konsorsiumunun ideoloqu kimi çıxış edərək, bu layihəyə "Amoco Eurasia" və "McDermott" kimi nəhəng şirkətləri cəlb edir.

1993-cü ildə "Transley Tradinq"in adı dəyişdirilərək "Farko Qrup" olur. "Farko Qrup" Rusiyanın Şimali Urenqoy yataqlarında layihə üzrə aparılacaq hasilat işlərinə operator qismində dəvət alır. Həmin yatağın işlənməsi üçün "Nortqaz" Qapalı Səhmdar Cəmiyyətini qurub və onun İdarə Heyətinin rəhbəri seçilib. O vaxt Rusiya iqtisadiyyatı kifayət qədər acınacaqlı durumda olduğu üçün "Nortqaz"ın da sözügedən yataqları işlətmək üçün heç bir gücü yox idi. Rusiya mətbuatı yazır ki, F.Əhmədov şirkəti alarkən "Nortqaz" cəmi 3 nəfərdən - prezidentdən, onun müavinindən və menecerdən ibarət idi. Lakin azərbaycanlı iş adamı şəxsi kapitalı hesabına şirkəti sıfırdan başlayaraq yenidən qurur, bir neçə il ərzində "Nortqaz" bazar dəyəri 1 milyard dollardan yuxarı olan nəhəng biznes qurumuna çevrilir. Bununla da F.Əhmədov Rusiyanın neft-qaz sahəsində ən iri fiqurlardan biri hesab edilir.

Lakin 2000-ci ilin əvvəllərində onunla "Qazprom" rəhbərliyi arasında mülkiyyət məsələsi üstündə müəyyən narazılıq yaranıb. Nəticədə F.Əhmədov "Nortqaz"ın səhmlərinin bir hissəsini "Qazprom"a verib.

2004-cü ilin 9 dekabrında Krasnodar vilayətindən Rusiyanın Federasiya Şurasının üzvü seçildikdən sonra "Nortqaz"ın prezidenti vəzifəsindən könüllü istefa verir.

2000-ci illərin əvvəllərində F.Əhmədov Azərbaycanda biznes qurur. Daha dəqiqi, 2006-cı ildə bir zamanlar atasının rəhbərlik etdiyi Göyçay nar zavodunu alır. Və özünün təsis etdiyi "AzNar" MMC-nin müəssisəsinə çevirir. Şirkət Göyçay rayonunda 1050 hektar sahədə nar bağları yaradıb. Şirkət 100 faiz təbii nar şirələrinin istehsalı və dünya bazarlarına çıxarılmasını təmin edir.

O, ilk dəfə 2004-cü ildə "Forbes" jurnalının zənginləri siyahısına düşüb. İlk vaxtlar F.Əhmədovun sərvəti 330 milyon dollar dəyərində qiymətləndirilirdi. Hazırda 1,3 milyard dollar sərvəti olduğu güman edilir.

Paralel olaraq Fərhad Əhmədov elmi fəaliyyətlə də məşğul olur. O, Rusiya və MDB ölkələrinin neft-qaz kompleksinin problemləri ilə bağlı çoxsaylı monoqrafiya və elmi məqalələrin müəllifidir. 1997-ci ildən Texnoloji Elmlər üzrə Beynəlxalq Akademiyanın müxbir üzvüdür. O, 2000-ci ildə İ.M.Qubin adına Rusiya Neft və Qaz Dövlət Universitetinin aspiranturasını bitirib. İqtisad elmləri namizədidir. 1996-2006-cı illər arasında "Neft-qaz üfüqləri" jurnalının naşiri olub.

❑ KƏNAN

# "A.M.A.Y. Abdulla"nın məhkəməsindəki müəmmalı fasilə bitmək bilmir

## İş adamına qarşı təzyiqlərin olduğu iddiası var; onun iqtidarla anlaşmaya gedəcəyi də istisna deyil


Abdulla Abdullayev

**Bu gün "A.M.A.Y." ticarət mərkəzinin həbsdə olan rəhbəri Abdulla Abdullayevin və digərlərinin işi üzrə məhkəmə prosesinin təxirə salınmasının 1 ayı tamam oldu. İyunun 4-də Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilməli olan məhkəmə prosesi qeyri-müəyyən səbəbdən qeyri-müəyyən vaxta qədər təxirə salınıb. Təxirə salınmanın səbəbi haqda məhkəmədən hər hansı açıqlama verilməyib. Bəzi məlumatlara görə, A.Abdullayevin işi üzrə prosesin təxirə salınması 1-ci Avropa Oyunları (AO) ilə əlaqəli olub.**

Ümumiyyətlə, AO ərəfəsində və zamanı Zabrat qəsəbəsində yerləşən Bakı İstintaq Təcridxanasından məhkəmələrə təqsirləndirilən şəxslərin gətirilməsində ləngimələr yaranmışdı. Bunun səbəbi kimi təqsirləndirilən şəxslərin məhkəmələrə gətirildiyi yolun Bakı Olimpiya stadionunun yaxınlığından keçməsi və yolda məhdudiyyətlərin qoyulması ilə əlaqəli olduğu göstərilirdi. Artıq oyunlar bitib və yollarda hər hansı bir problem yoxdur. Bu isə A.Abdullayevin işi üzrə prosesin səbəbinin başqa olduğunu söyləməyə əsas verir. Ötən müddət ərzində A.Abdullayevin yaranmış duruma reaksiya verməməsi onunla müəyyən danışıqların aparılması qənaətini yaratmışdı. Lakin vəkili Osman Kazımovun mətbuata son açıqlaması yaranmış qənaətin doğru olmadığını ortaya qoydu. **"Bunlar sifarişlə keçirilən məhkəmələrdir və konkret söz deyilməyincə, hansısa bir hərəkət olacağı inandırıcı deyil"**, - deyə vəkil faktiki məhkəmələri müstəqil olmamaqda ittiham etmişdi. O.Kazımov A.Abdullayev və daha 5 nəfər üzərində mart ayından iyun ayına kimi davam edən məhkəmə prosesləri və konkret ittihamlar barədə açıqlama verib. **"Burada müdafiə tərəfi üçün vacib olan budur ki, ittiham tərəf irəli sürdüyü ittihamları sübuta yetirə bilmir"**, - deyə vəkil istintaqı əsassız ittiham irəli sürməkdə suçlayıb. O qeyd edib ki, istintaq tərəfin yüzlərlə zərərçəkən kimi tanıdığı şəxs A.Abdullayevi təqsirli və ya zərərvuran şəxs kimi tanımayıblar. Vəkilə görə bu da onu göstərir ki, istintaq təqsirləndirmək istədiyi şəxsin təqsirini sübuta yetirə bilməyib. O.Kazımov A.Abdullayevin şantaja məruz qaldığını da açıqlayıb. Onun sözlərinə görə, məhkəmə prosesinin gedişində şantajın haradan qaynaqlanması bütün proses iştirakçılarına da aydın olacaq.

Qeyd edək ki, Abdulla Abdullayev və digərləri Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və ya israf etmə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə təqsirləndirilir. Təqsirləndirilən şəxslərdən yalnız A.Abdullayev barəsində həbs-qətimkan tədbiri seçilib, digər şəxslər isə zamindədirlər. A.Abdullayev ötən il aprelin 4-də həbs olunub. Onunla bağlı İqtisadiyyat və Sənaye Nazirliyi yanında Sahibkarlığa Kömək Milli Fondundan daxil olmuş material Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.

A.Abdullayevin həbsi ilə bağlı Baş Prokurorluğun mətbuat xidmətinin zamanında yaydığı məlumata görə, ilkin araşdırma zamanı toplanmış sübutlar əsasında Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və ya israf etmə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanıb. İstintaq müəyyən edib ki, 2006-2008-ci illərdə "Birlikbank" ASC-nin Müşahidə Şurasının sədri işləmiş Abdulla Abdullayev vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə kənd təsərrüfatı, eləcə də digər sahələrin inkişafına yönəldilməsi nəzərdə tutulan ümumilikdə 3 milyon 397 min manat məbləğində vəsaiti təyinatı üzrə istifadə etməyib.

İstintaqın gəldiyi qənaətə görə, vəsaiti ayrı-ayrı hüquqi şəxslərin müvəkkil bank olan "Birlikbank" ASC-də açdırdığı hesablaşma hesablarına köçürməklə həmin vəsaiti faktiki rəhbəri olduğu "A.M.A.Y." MMC-nin Xətai rayonu ərazisində yerləşən binasının təmir-tikinti işlərinə xərcləyib. A.Abdullayevə və digərlərinə Cinayət Məcəlləsinin qeyd olunan maddələri üzrə ittiham elan edilib. İş üzrə təqsirləndirilənlərdən yalnız onun barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 144 (6172) 4 iyul 2015

**İyulun 2-də ABŞ-ın Azərbaycandakı səfirliyi ölkəsinin müstəqilliyinin elan olunmasının 239-cu ildönümü ilə əlaqədar rəsmi qəbul təşkil edib. ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekuta tədbirdə çıxış edərək ölkəsinin müstəqillik tarixindən danışıb. Azərbaycan-ABŞ münasibətlərindən söz açan diplomat hər iki ölkənin birlikdə bir çox uğurlara nail olduqlarını söyləyib. ABŞ-ın Azərbaycanın müstəqilliyini və suverenliyini dəstəklədiyini vurğulayan səfir iki ölkə arasında güclü tərəfdaşlığın olduğunu qeyd edib.**

# Azərbaycan hakimiyyətindən ABŞ-a qarşı demarş?

**Ərəstun Oruclu:** "Dünyanın fövqəlgücü olan bir dövlətin Müstəqillik Günü ilə bağlı tədbirində hökumət daha yüksək səviyyədə təmsil oluna bilərdi..."

**Fəzail Ağamalı:** "28 May Respublika Günündə ABŞ-da səfirlik səviyyəsində keçirilən tədbirdə Amerika tərəfindən kim təmsil olunub, bunun araşdırılmasına ehtiyac var"





İştirakçıların bir çoxu Azərbaycan dövlətinin tədbirdə ən azı ənənəvi qaydada olduğu kimi maliyyə naziri Samir Şərifov səviyyəsində təmsil olunacağını gözlədiyi halda, bu, baş verməyib. Məlum olub ki, Azərbaycan tərəfini törəndə gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov təmsil edir. Bu da bir çoxlarının təəccübünə səbəb olub.

"Yaxşı olar ki, mən ABŞ-Azərbaycan əlaqələrindən danışım. Hər iki ölkə bu əlaqələrin gücləndirilməsini istəyir və bu istiqamətdə işləyir. Əlbəttə, müəyyən məsələlər var ki, biz onun üzərində işləyirik". Bu barədə ABŞ səfiri **Robert Sekuta** "Amerikanın səsi"nin "Rusiya-Azərbaycan münasibətləri fonunda bugünkü Azərbaycan-Amerika münasibətlərini necə qiymətləndirirsiniz" sualının cavabında bildirib. O eyni zamanda deyib: "Hər dəfə demişəm, bir daha təkrar edirəm, Birləşmiş Ştatlar güclü, çiçəklənən, pozitiv, demokratik Azərbaycan görmək istəyir".

**AzadlıqRadiosunun Azərbaycan ofisinin açılma ehtimalı və Xədicə İsmayılovanın həbsdən azad edilməsi üçün aparılan işlərlə bağlı sualın cavabında səfir deyib:** "ABŞ dəfələrlə bildirib, yenə də bildirir ki, AzadlıqRadiosunun Azərbaycandakı fəaliyyətinin ən yüksək jurnalizm standartlarına uyğun olaraq həyata keçirilməsini gözləyir".

**Səfir hər hansı şəkildə müavin səviyyəsində təmsilçilik məsələsinə münasibətini büruzə verməsə də, bəzi müşahidəçilər son addımı rəsmi Bakının ABŞ-a qarşı kəskin demarşı kimi qiymətləndirir və hesab edirlər ki, Ağ Ev bunu yadında saxlayacaq.**

"Bu, onun göstəricisidir ki, münasibətlər ciddi şəkildə zədələnib. Bunu əvvəllər də demişdik. Amma həm də onun göstəricisidir ki, Azərbaycan tərəfdə demarşlar bir qədər siyasi və diplomatik etiketdən kənara çıxır. Çünki söhbət təkcə qarşısındakı dövlətə deyil, həm də özünə hörmətdən gedir". **Politoloq Ərəstun Oruclu** bunu "Yeni Müsavat"a açıqlamasında bildirdi.

**Onun sözlərinə görə, dünyanın fövqəlgücü olan bir dövlətin müstəqillik günü ilə bağlı tədbirində Azərbaycan hökuməti daha yüksək səviyyədə təmsil oluna bilərdi:** "Çünki istənilən halda istənilən ölkə ilə münasibətlər heç vaxt sona qədər korlanmır və korlanmamalıdır. Müəyyən mərhələlər olur, gərginlik, çətinlik... Amma sonda yenə danışıb bu problemləri aradan qaldırmaq lazım gəlir. Mən hesab edirəm ki, bu, bir qədər emosional yanaşma idi. Siyasət belə şeyləri məqbul saymır". **Lakin Oruclu düşünmür ki, ABŞ-dan əks-reaksiya ola bilər:** "Sadəcə olaraq, onu mesaj olaraq qəbul etdilər, məncə, başqa bir şey olmayacaq".

**AVP sədri, deputat Fəzail Ağamalı isə fərqli fikirdədir. Bayram törəninə dəvətlilər sırasında olan deputat hesab etmir ki, bu, Bakı-Vaşinqton münasibətlərindəki gərginliklərlə bağlıdır:** "Təbii ki, mən Azərbaycan dövlətinin bu şəkildə təmsil olunmasının səbəbini deyə bilmərəm. Ancaq sadəcə olaraq demək istərdim ki, hər halda, Azərbaycanın son praktikasında bu cür hallar var. Əvvəllər daha yüksək səviyyəli məmurlar bu və ya digər ölkənin bayram tədbirlərində iştirak edirdilər. İndi bir az fərqli yanaşmalar var. Dünyanın ayrı-ayrı ölkələrinin praktikasını götürək. Azərbaycanın 28 May Respublika günündə ABŞ-da səfirlik səviyyəsində keçirilən tədbirdə Amerika tərəfindən kim təmsil olunub, bunun araşdırılmasına ehtiyac var. Deyilə bilər ki, ABŞ fövqəlgücdür, dünyanın ən güclü dövlətidir və sair. Təbii ki, bu, var. Ancaq protokol qaydaları da var, dövlətin iriliyindən, xırdalığından asılı olmayaraq müstəqil dövlət kimi onun tarixi günləri hər bir ölkədə qeyd olunarkən qəbul olunmuş qaydalar var ki, orda həmin ölkənin rəsmiləri də iştirak edir".

**Ağamalı xatırlatdı ki, bir müddət öncə Azərbaycan özünü dünyaya həm də idman ölkəsi kimi yüksək səviyyədə təqdim etdi:** "Həm də nəzərə alsaq ki, Azərbaycan dövləti ABŞ-a nisbətən gənc dövlətdir, onunla Azərbaycan arasında 200 ildən də yuxarı fərqli müstəqillik tarixi var. Ona görə də Azərbaycanın idman ölkəsi və gənc dövlət olaraq onun təmsilçisinin idman və gənclər nazirinin müavininin olması həm də simvolik xarakterli məsələdir. Ola bilsin gələcəkdə nazir, yaxud digər şəxslər səviyyəsində də təmsilçilər olsun. ABŞ bizim 28 May tədbirimizdə yüksək səviyyədə, dövlət katibi, yaxud müavinləri səviyyəsində iştirak etmirsə, bu, o demək deyil ki, Vaşinqton, yaxud başqa ölkənin paytaxtı Azərbaycanla soyuq münasibətlərdədir. Hər bir ölkənin yanaşması və protokol qaydaları var".

**Əvvəlki illərdən fərqli olaraq, builki müstəqillik bayramında səfirliyə dəvət alan Azərbaycanın dövlət və hökumət nümayəndələrinin tədbirə qatılmaması barədə sualı cavablandıran YAP funksioneri, deputat Siyavuş Novruzov bildirib ki, tədbirdə iştirak dəvətnamə ilə olduğu üçün yalnız seçilmiş insanlar orada olublar:** "Kimi dəvət ediblərsə onlar da iştirak ediblər. Mənə də dəvətnamə göndərilməyib".

❑ **E.PAŞASOY**
**FOTO: "YM"**

# "Azadlıq 2015" bloku səfirliklərlə görüşlərə başlayacaq

**Əli Əliyev:** "Seçkiyə yönəlik iş qrafiki tərtib edilib, bu cədvələ uyğun tədbirlər müvafiq müddətlərdə həyata keçirilir"


Əli Əliyev

**"Azadlıq-2015" seçki bloku qarşıdan gələn parlament seçkiləri ilə bağlı deputatlığa namizədlərin müəyyənləşdirilməsinə start verib. Blokun Sədrlər Şurasının iclası olub və iclasda ölkədəki ictimai-siyasi vəziyyət, qarşıdan gələn parlament seçkiləri, qarşıda duran vəzifələr müzakirə edilib. 1 noyabrda keçiriləcək parlament seçkilərini müzakirə edən blokun Sədrlər Şurası "Azadlıq-2015" seçki blokunun deputatlığa namizədlərinin siyahısı üzərində müzakirələr aparıb və müəyyənləşdirilmiş deputatlığa namizədlərlə görüşün keçirilməsi barədə qərar qəbul edilib.**

Blok üzvləri həmçinin bu həftə ərzində bir sıra xarici ölkə səfirlikləri ilə keçiriləcək görüşlərlə bağlı fikir mübadiləsi aparıblar.

**Blokun Sədrlər Şurasının üzvü, VİP sədri Əli Əliyev** bildirdi ki, "Azadlıq 2015" seçki blokunun seçkiyə yönəlik iş qrafiki tərtib edilib. Bu cədvələ uyğun tədbirlər müvafiq müddətlərdə həyata keçirilir: "Ən miqyaslı və vacib işimiz məhz namizədlər siyahısının tərtibatıdır. İlk mərhələdə bloka daxil olan partiyalar öz ümumi siyahılarını seçki qərargahına təqdim ediblər. Hazırda namizədlər barədə məlumatlar toplanır. Ramazan ayı işimizin intensivliyinə öz korrektələrini edib. Yəqin bayramdan dərhal sonra, namizədlərin uzlaşdırılması işinə baş vuracağıq. İlkin təqdimat mərhələsində irəli sürülmüş namizəd siyahıları coğrafi olaraq, 110-a yaxın seçki dairəsini əhatə edirdi. Bizim sədrlər şurasının əhatə ilə bağlı ilkin rəyi müsbət idi. İkinci çevrədə, yəni konkret dəyərləndirmə mərhələsində namizədlərin rəqabət imkanları müzakirə ediləcək".

**Ə.Əliyev qeyd etdi ki, blokdakı partiya sədrlərinin əksəriyyəti dairələrini qətiləşdirməyiblər:** "Hər biri potensial dairələri dəyərləndirir. Lakin müəyyən məhdud çevrə hər biri tərəfindən hesablanıb. Konkretlik yəqin ki, avqust ayının ortalarına ərsəyə gələcək. Dairələrin partiyalar arasında riyazi bölgüsü mövcud deyil. Bütün siyahılar götürülüb, ikinci mərhələdə fərdi dəyərləndirmə üsulu ilə sədrlər şurasında namizədlər haqda qərar çıxarılacaq. Toqquşma ciddi olduğu dairələr üzrə müvafiq individual qərarımız olacaq".

**Blokun rəhbərliyinə daxil olan şəxslərin səfirliklərlə görüşlər keçirmək istəyinə gəlincə, Ə.Əliyev dedi ki, məqsəd diplomatik korpusun diqqətini Azərbaycandakı siyasi proseslərə cəlb etmək, onları məlumatlandırmaqdır:** "Hesab edirik ki, son dövrlər hakimiyyətin Qərblə davranışının sərtliyi fonunda, belə təşəbbüslər ümumi ovqata müsbət təsir edə bilər. Fikrimizcə, iqtidarın ritorikası Azərbaycanın Qərbdən uzaqlaşmasına xidmət edə bilər. Biz belə trenddə maraqlı deyilik. Qərbə alternativ siyasi coğrafiya milli maraqlarımıza uyğun deyildir. Ona görə də toplumun bir seqmenti olaraq, səfirliklər, beynəlxalq təşkilatlarla daha intensiv əlaqələr yolu ilə cəmiyyətin siyasi istəklərini onlara yetirmək istərdik. Universal və təməl haqların vəziyyəti beynəlxalq ictimaiyyətin nəzərində olmalıdır".

Qeyd edək ki, "Azadlıq-2015" blokuna KXCP, AXP, Aydınlar, Azadlıq, ALDP, VİP, Böyük Azərbaycan və Azad Demokratlar Partiyası daxildir.

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 144 (6172) 4 iyul 2015

# Kredit faizləri arta bilər

## Devalvasiyadan sonra bank sistemi hələ özünə gələ bilmir, xarici öhdəliklərin artması isə ciddi problemlər yaradacaq...

**Mərkəzi Bank banklara və bank olmayan kredit təşkilatlarına məktub göndərərək istehlak kreditləri üzrə tutulan komissiya haqlarının nağdlaşdırma da daxil olmaqla, kreditin məbləğinin 1 faizi keçməməsini tapşırıb. Statistikaya baxdıqda, Mərkəzi Bankın tapşırığının "bahalı" tapşırıq olduğu məlum olur. Elə Mərkəzi Bankın məlumatına görə, 2014-cü ildə banklar 476,45 milyon manat qeyri-faiz gəlirləri əldə ediblər. Ötən il, 44 bank orta hesabla ayda təxminən 40 milyon manat qeyri-faiz gəliri əldə edib. "Marja.az"ın xəbərinə görə, ötən il, bankların 476,45 milyon manat qeyri-faiz gəlirlərinə qarşı qeyri-faiz xərcləri 909,14 milyon manat təşkil edib. Yəni bankların 432,69 milyon manat xalis qeyri-faiz zərəri yaranıb.**

2014-cü ildə bankların faiz gəliri 2 milyard 255,73 milyon manat, faiz xərcləri 986,44 milyon manat, xalis faiz mənfəəti isə 1 milyard 269,29 milyon manat təşkil edib. Ümumiyyətlə, pərakəndə kreditlərin verilməsi üzrə ixtisaslaşmış bankların cəmi gəlirlərinin 20-25 faizi qeyri-faiz gəlirləri, 80 faizi faiz gəlirləri hesabına formalaşır. Qeyri-faiz gəlirlərinə hesabların aparılması üzrə xidmətlərdən komisyon gəliri, valyuta əməliyyatlarından gəlir, qiymətli kağızların satışı üzrə gəlir, təsərrüfat cəmiyyətlərdə iştirakdan və realizə edilən qiymətli kağızlara investisiyalardan gəlir və verilən kreditlərə görə tutulan komisyon gəlirləri daxildir. Bir çox bankların qeyri-faiz gəlirlərinin 50 faizdən çoxu verilən kreditlərə görə tutulan komisyon gəlirlərindən ibarətdir.

Əgər kommersiya bankları Mərkəzi Bankın tapşırığına əməl edib maksimum 1 faiz komissiya haqları tətbiq etsələr, bu halda qeyri-faiz gəlirlərinin təxminən 50 faizini itirməli olacaqlar. Qeyd edək ki, 2014-cü ilin birinci rübündə bankların əksəriyyəti devalvasiyaya görə qeyri-faiz gəlirləri üzrə zərər açıqlayıblar. Məzənnə dəyişməsi daxil olmaqla, valyuta əməliyyatlarından itki qeyri-faiz gəlirlərinə aid edildiyindən, belə bir zərər yaranmışdı.

Bank sektorunun bir çox nümayəndəsi bildirir ki, Mərkəzi Bankın banklara göndərdiyi məktubun hüquqi qüvvəsi yoxdur. Belə ki, "Banklar haqqında" Qanunun 36.6-cı maddəsinə görə, hər bir bank müştərilərlə bağladığı müqavilədə xidmət şərtlərini, o cümlədən faiz dərəcələrini, komisyon haqlarını və göstərilən bank xidmətləri üçün digər ödənişləri, habelə bank tərəfindən verilmiş kreditlərin ödəniş şərtlərini və qaydalarını müəyyən etməkdə sərbəstdir. "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının Qanununa görə də BOKT tərəfindən verilən kreditlər üzrə faiz dərəcəsi, habelə bu Qanuna müvafiq olaraq göstərilən maliyyə xidmətlərinə görə tutulan komisyon və xidmət haqlarının məbləği BOKT ilə borcalan (xidmətlərdən istifadə edən) arasında bağlanılan müqavilə ilə müəyyən olunur. Komisyon haqlarının aşağı salınmasının kredit faizlərinin artırılması ilə nəticələnəcəyi gözlənilir. "Banklarda kreditlərin verilməsi qaydalarına görə", Kreditlər üzrə faiz dərəcələrinin müəyyənləşdirilməsi. Bankdaxili qaydalarda ayrı-ayrı kreditlər və onların müxtəlif növləri üzrə faiz dərəcələrini müəyyənləşdirmək üçün istifadə edilən iqtisadi və bazar şərtləri, habelə müxtəlif amillər nəzərdə tutulmalıdır. Banklar kreditlərə tətbiq ediləcək faiz dərəcələrini müəyyənləşdirərkən resursların dəyərini, kreditlərə xidmət xərclərini, ümumi inzibati 8 xərcləri, mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatı və yetərli miqdarda mənfəəti, portfel üzrə itkiləri, eləcə də elavə komisyon haqlarının tutulub-tutulmamasını nəzərə almalıdırlar.

Ekspertlər də faiz dərəcələrinin yenidən artırılacağını ehtimal edirlər.

**Ekspert Natiq Cəfərli məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, əslində bankların ümumi vəziyyətinin ağır olması sirr deyil:** "Devalvasiyadan sonra bank sistemi hələ özünə gələ bilmir. Hələ ondan əvvəl də o qədər dayanıqlı olmayan bank sistemimiz vardı. Devalvasiyadan sonra isə bank sistemində tamamilə









struktur problemləri yarandı. Çünki bankların böyük əksəriyyəti illərdir bir sxem üzrə işlərini qurmuşdular. Xaricdən, əsasən Avropadan çox ucuz kredit mənbələrinə çıxış əldə etmişdilər. Bunlar valyuta şəklində idi və həmin valyutanı sonradan Azərbaycan daxilində əsasən manat şəklində, istehlak kreditləri formasında daha yüksək faizlərlə əhaliyə verirdilər. Devalvasiyadan sonra isə hər bir halda, banklar çox ciddi ziyanla qarşılaşdılar. Xarici öhdəliklərinin artması onların bu problemlərin həllində gələcəkdə daha ciddi maneələrlə üzləşəcəyi haqqında fikir bildirməyə əsas verir. Bundan başqa, yaxın günlərdə beynəlxalq nüfuzlu reytinq agentlikləri də Azərbaycan banklarında ciddi problemlərin olduğu haqqında məlumat yaydı və banklarımızın kredit notunu aşağı endirdi, neqativ görünüm aldı. Bunun mənası o deməkdir ki, sabah Azərbaycan bankları hər hansı bir ciddi kreditlər üçün müraciət etsə, artıq daha yüksək faizlə kredit almağa məcbur olacaqlar. Çünki Azərbaycan banklarının riski artıb. Beynəlxalq agentliklərin bu qiymətləndirməsi məhz buna görə çox vacibdir. Ona görə də sülh yollarından biri kimi daxili bazarda kreditlərin sərtləşməsi və faizlərin yüksədilməsi təklifləri səslənir. Bu yola gediləcəyi haqqında fikirlər səsləndirilir. Əslində onsuz da kredit bazarında çox ciddi problemlər yaşanır və kreditlərin faizlərinin artırılması çıxış yolu deyil. Əksinə, kredit bazarına daha ciddi mənfi təsir göstərəcək və əhali tərəfindən kreditlərə çıxış imkanlarını məhdudlaşdıracaq. Bu isə tək bankların problemi olmayacaq. Kreditlərinin böyük əksəriyyəti istehlak bazarına yönəldiyindən, banklar kreditlərin verilmə faizi yüksəldikdə, kredit verilməsi çətinləşdikcə, istehlak bazarına da ciddi təsir göstərəcək. Həm avtomobil bazarına, həm mebel bazarına, məişət avadanlıqları bazarına ciddi təsiri olacaq. Çünki son dövrlərdə satışların böyük əksəriyyəti məhz bank kreditləri vasitəsilə həyata keçirilirdi. Yəni bank kreditləri vasitəsilə bazar genişlənirdi. Faizlərin artırılması ciddi sıxıntılara yol açacaq. Əslində tək bank sektoruna deyil, iqtisadi göstəricilərə, o cümlədən kreditlərə çıxışların məhdudlaşması digər sahələrə, pərakəndə satışa, ölkəyə mebelin gətirilməsinə, avtomobil bazarına və digər sahələrə də ciddi təsir göstərir".

**Ekspert Samir Əliyev isə bildirib ki, ümumən götürdükdə, bu təşəbbüs kredit bazarında rəqabətin yaranması baxımından müsbətdir və sui-istifadə hallarını aradan qaldıracaq:** "Hazırda banklar komisyon haqları hesabına kifayət qədər manevr etmək imkanına malikdir. Təsəvvür edin ki, müştəri cəlb etmək üçün faiz dərəcələrini aşağı təklif edirlər. Müştəri müqavilə imzalayan an məlum olur ki, böyük həcmdə komisyon haqqı ödəməlidir. Bir sözlə, banklar marketinq strategiyasına uyğun olaraq "aşağı faiz dərəcəsi- yüksək komisyon haqqı" prinsipinə üstünlük verir. Komisyon haqları hətta 6-7 faizə qədər çatır. Bu gəlir bankların gizli gəliri hesab olunur. Təsəvvür edin ki, illik faiz dərəcəsi 24 faiz olan 6 aylığa verilən kreditlərin effektiv faiz dərəcəsi təxminən 7 faizə bərabərdir. Yəni banklar komisyon haqları hesabına 6 aylıq qazancı birdəfəyə, bir günə qazana bilir. Ancaq komisyon haqları üçün 1 faizlik həddin qoyulması müştəriyə hansı bankın münasib şərtlərlə kredit verdiyini müəyyənləşdirməyə imkan verəcək. Nəticədə kredit bazarında müəyyən rəqabət formalaşacaq".

**S.Əliyevin fikrincə, ilk növbədə kreditlərin faiz dərəcələri artsa da, bu təsir uzunmüddətli olmayacaq:** "Bir müddət sonra faiz dərəcələrində azalma müşahidə ediləcək. Azalmanın əvvəlki səviyyəyə düşəcəyini söyləmək tezdir. Çünki kredit bazarında digər amillər də nəzərə alınmalıdır. Digər təsir müştərinin sığortalanması ilə bağlı olacaq. Bəzi banklar düzgün olaraq komisyon haqları hesabına müştərinin həyatını sığortalayırdı. MB-nin göstərişindən sonra banklar müştərinin sığortalanmasını onun öz öhdəsinə buraxacaq. Ona görə də MB yaxın dövrlərdə bank qanunvericiliyinə bir sıra dəyişiklik etməlidir. Birincisi, "Banklar haqqında" Qanuna dəyişiklik edilməklə komisyon haqlarının həddi MB tərəfindən təsdiq edilmiş normativə əsasən müəyyənləşdirilsin. İkincisi, kredit götürən müştərinin həyatının sığortalanması qanunvericiliklə icbari xarakter daşısın".

❑ RÖYA

# İcra başçısının "çəkisinə dözməyən" hakimin "ədalət tərəzisi"

## Azərbaycan məhkəməsi günahsız sürücüyə 6 il həbs cəzası verib, günahkarı azad etməklə adını tarixə yazır

**Azərbaycan cəmiyyəti növbəti dəfə ədalətsiz, hətta Allahsız bir məhkəmə hökmünün şahidi oldu. Məhkəmə ölümə səbəb olmuş şəxsi həbsdən azad etdi, ancaq heç bir günahı olmayan şəxs həbsdə qaldı. Söhbət Səbayel rayon icra başçısının oğlunun səbəb olduğu faciəvi avtoqəzadan gedir.**

"Turan" agentliyinin məlumatına görə, iyunun 29-da Apelyasiya Məhkəməsi Vaqif Mursaqulovun sədriyi ilə Səbayel rayon icra başçısı Asif Əsgərovun oğlu İlham Əsgərlinin azadlıqdan məhrumetmə cəzasının müddətini 5,5 ildən 3 ilə qədər azaldıb. Eyni zamanda qətimkan tədbiri dəyişdirilərək, cəzasını məntəqə tipli cəzaçəkmə müəssisəsində çəkməsinə qərar verib. Beləliklə, İlham Əsgərli azadlığa çıxıb.

Xatırladaq ki, 2015-ci il mayın 12-də Bakı Ağır Cinayətlər Məhkəməsi "Mc Donald's"ın Bakı nümayəndəliyinin rəhbəri Maqsud Mirzəyevin oğlu Sənan Mirzəyevin həlak olması ilə bağlı iş üzrə hökm çıxarıb. Məhkəmə bu qəzada İlham Əsgərlini və Əhliman Süleymanovu təqsirli bilib, onları 5,5 və 6 il müddətinə azadlıqdan məhrum edib. Hər ikisi məhkəmə zalında həbs ediliblər.



İlham Əsgərli

Sənan Mirzəyev 2014-cü il sentyabrın 28-də avtomobil qəzasında həlak olub. Qəza Zığ-Aeroport yolunda baş verib, İlham Əsgərlinin idarə etdiyi "Mercedes S500" Əhliman Süleymanovun idarə etdiyi "Howo" yük maşınını vurub. Həmin vaxt Sənan Mirzəyev və Pərvin Fətullayev *(maşını idarə etməyi İlhama həvalə etmiş sürücü)* "Mercedes"də olub.

Sənan Mirzəyev xəstəxanada bir müddət sonra vəfat edib, Fətullayev və Əsgərli isə yaralanıblar və müalicədən sonra ev dustaqlığına alınıblar. Şahidlərin ifadələrindən görünürdü ki, "Mercedes" 180-200 km/saat sürəti ilə gedirdi və yük maşınını ötməyə çalışarkən onu vurub.

Ancaq göründüyü kimi, ilkin instansiya məhkəməsi qəzaya və bir nəfərin ölümünə səbəb olan şəxsi 5,5 il, hadisədə faktiki olaraq təqsiri olmayan yük maşını sürücüsünü isə 6 il müddətinə azadlıqdan məhrum edib. Hələ o zaman məhkəmənin faktiki olaraq günahı sübuta yetirilməmiş sürücünün bu şəkildə ağır cəzalandırması birmənalı qarşılanmamışdı. Ancaq indi Apelyasiya Məhkəməsi Ağır Cinayətlər Məhkəməsinin qərarını kölgədə qoyan hökm verib.

Əlbəttə, məsələ onda deyil ki, icra başçısının oğlu hökmən ağır məhkumluq cəzası almalı idi. Məhkəmə hansısa *(əgər həqiqətən də belə bir səbəb varsa)* əsasa görə qəzaya və insan ölümünə səbəb olan şəxsin cəzasını azaldıb. Yəni faktiki olaraq azad edib. Ancaq nədənsə eyni mərhəmət nümunəsi sürücüyə şamil olunmayıb və hakim qəzada faktiki olaraq günahı olmayan yük maşını sürücüsünü unudub. Halbuki şahid ifadələri də yük maşınının günahkar olmadığını bildirib. Yəni hakim ən azı icra başçısının oğluna qarşı sərgilədiyi mərhəməti yük maşını sürücüsünə qarşı da edə bilərdi. Ancaq görünür, bu qərarın verilməsində hakimin mərhəmət hissi deyil, başqa səbəblər üstün olub. Və təbii ki, ən mühüm səbəblərdən biri də icra başçısı Asif Əsgərov olub. Və sonda bu hökmü Azərbaycan ədliyyəsi götürsə də, Allah götürməz. Hakimlərin də məhkum olduğu gün var axı.

❑ MEHDİ

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Azərbaycan ətrafında artan müharibə riskləri

## Ukraynadakı "böyük savaş" Qarabağ konfliktinə də təsirsiz ötüşməyəcək; ABŞ-ın güclənən diplomatik fəallığı sülh prosesinə yeni məzmun verə biləcəkmi? Ekspert: "Ermənistan 7 rayonu qaytarsa, tərəflər arasında etimad atmosferi yaranar..."

**Postsovet məkanındakı etnik-ərazi münaqişələrinin, o cümlədən Dağlıq Qarabağ probleminin həllinə Rusiyanın əngəl siyasəti davam edir. Bu harasıdır, son günlər Moskvada hakim partiyanın deputatları və qalmaqallı siyasətçi Vladimir Jirinovski tərəfindən SSRİ-nin çöküşünün "qanuni olub-olmaması" kimi hüquqi müstəvidə fitnəkar təşəbbüslər irəli sürülməkdədir.**

Bütün bunlar rəsmi Moskvanın Sovet İttifaqını bərpa eləmək yönündə planlarının ciddiliyinə şübhə yeri saxlamır. Şimal qonşumuzun Ukrayna ətrafında və Donbasda, Azərbaycan daxil, Güney Qafqaza yaxın bölgələrdə hərbi mövcudluğunu günbəgün artırması bu Kremlin yaxın hədəflərinə başqa yandan işıq salır.

***

**Bu arada Gürcüstanın müdafiə naziri Tinati Xidaşeli** bölgə ölkələrinə Rusiya təhlükəsinin reallığı haqda xəbərdarlıq edib. İsveçrə nəşrinə müsahibəsində nazir deyib ki, Rusiyaya qətiyyətli cavab verilməsə, onun ətrafdakı suveren dövlətlərə qarşı işğalçılığı davam edəcək: "Sivil dünya 2008-ci ilin səhvini Ukraynada təkrarlamamalıdır - nə vaxt ki, Gürcüstan kömək istəsə də onu axır ki, ala bilmədi. Təkcə mən - müdafiə naziri deyil, gürcülərin hamısı Rusiyanın Ukraynada apardığı müharibə sarıdan narahatdır".

**Müdafiə naziri ölkəsinin hələ də Rusiya ilə müharibə vəziyyətində olduğunu xatırladaraq daha sonra bildirib:** "Döyüşlər getməsə də, Rusiyanın işğal elədiyi Abxaziya və Cənubi Osetiyada hər gün insanlar itkin düşür. Hazırda Cənubi Osetiya Rusiya Silahlı Qüvvələrinin hərbi bazasına və Gürcüstanı bir neçə saat ərzində işğal eləmək üçün platsdarma çevrilib".

Yada salaq ki, Rusiyanın ən əvvəl öz yaxın qonşuları üçün təhlükə olması haqda ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə sabiq köməkçisi, nüfuzlu politoloq Zbiqnev Bzejinski də xəbərdarlıq edib. Ukraynada Rusiyanın davranışlarını analiz edən Bzejinski Azərbaycanın Moskvanın növbəti hədəflərdən biri ola biləcəyini istisna eləməmişdi.

***

Ukraynanın şərqində isə hərbi vəziyyət getdikcə pisləşir. Bəzi mənbələr hətta böyük müharibəyə cəmi iki həftə qaldığını iddia edir. Onların qənaətincə, Donetsk ərazisində bu yaxınlarda genişmiqyaslı döyüşlərin başlayacağı realdır. Hətta dəqiq tarix də göstərilir -15 iyul.

Kəşfiyyat qruplarının hər iki tərəfin müharibəyə fəal hazırlığı haqqında hər gün yeni xəbərlər verməsi göstərir ki, savaş davam edir. "İyulun əvvəllərində taktiki təlimləri başa çatdıracaqlar. Hələ ki bütün kartları açıqlamırıq. Dəqiq məlumatımız var ki, 15 iyulda hücuma hazırlaşırlar", - deyə Ukrayna Silahlı Qüvvələrinin kəşfiyyat bölüyünün komandiri, leytenant İqor Mazur bildirib.

Hadisələrin bu cür inkişafı sözsüz ki, Dağlıq Qarabağ konflikti zonasına da əks-səda verəcək. Hökmən deyil ki, bu, hərbi əməliyyatların bərpa edilməsi şəklində olsun. Ancaq ən azından sülh prosesi növbəti ağır zərbəsini alacaq.



***

**Belə görünür, Dağlıq Qarabağ ixtilafının tezliklə tarixin arxivinə verilməsi hələ ki şimal qonşumuzun maraqlarına daxil deyil və bunu düşmən ölkədə də, deyəsən, anlamağa başlayıblar. Məsələn, "Jamanak" qəzeti yazıb ki, Rusiya Azərbaycan və Ermənistan arasında düşmənçiliyi qızışdırmaqla məşğuldur.**

"Məlumdur ki, Ermənistan parlamenti ölkəyə güzəştli kreditin ayrılması haqqında Rusiya və Ermənistan hökumətləri arasında imzalanmış sazişi ratifikasiya edib.

200 milyon dollara Ermənistan Rusiya istehsalı hərbi texnika və silah almalıdır. Lakin həmin məbləğə konkret olaraq nəyin alınacağı sirr saxlanılır" - qeyd edir nəşr.

"Belə ehtimallar var ki, Rusiya bununla Ermənistan və Azərbaycanın hərbi-texniki imkanlarını bərabərləşdirir və ya yaxınlaşdırır. Bununla da, Bakının silahlanma yarışını davam etdirmək və İrəvan üzərində üstünlüyü ələ almaq üçün yeni milyardlar xərcləməkdən başqa çarəsi qalmır. Görünür ki, Ermənistana təqdim edilən 200 milyon dollar Azərbaycanın Rusiyaya 2-3 milyard dollarlıq sifariş verməsi ilə nəticələnəcək. Bu böyük dövlət vaxtaşırı iki ölkə arasında düşmənçiliyi qızışdırır" - qəzet yazıb.

***

Əlbəttə ki, Azərbaycanla Ermənistan arasında barışmaz münasibətlərin, düşmənçiliyin qalması və dərinləşməsi ən çox Rusiyaya əl verir - baxmayaraq ki, ara-sıra Moskvadan "gümrahlaşdırıcı" açıqlamalar da gəlir. Rusiyalı tanınmış politoloq, prezident Vladimir Putinin etibar etdiyi şəxslərdən olan Sergey Markovun "AzerRos"un informasiya portalına müsahibəsində söylədikləri bu qəbildən sayıla bilər.

**Sitat:** "Mən hesab edirəm ki, hər iki tərəf kompromisə getməlidir. Variantlardan biri budur ki, Dağlıq Qarabağın statusu məsələsi müvəqqəti kənara qoyulsun. İndiki mərhələdə Ermənistan Dağlıq Qarabağ ətrafındakı 7 rayonu Azərbaycanın nəzarətinə verə, qarşılığında Ermənistanın Azərbaycan və Türkiyə tərəfindən blokadası götürülə bilər. Belə bir kompromis Dağlıq Qarabağın yekun statusuna dair danışıqlarda etimad atmosferi üçün əsas yaradardı".

Lakin iş də ondadır ki, Ermənistan Qarabağ məsələsində əsas söz sahibi deyil, İrəvanın sözünü Moskva deyir. Moskva isə hələlik 7 rayonla bağlı öz forpostuna təzyiqlər edənə oxşamır. Deməli, bölgədə, Dağlıq Qarabağda yeni müharibə təhlükəsi qalır.

Görünür, Kremlin destruktiv mövqeyinin dərkindəndir ki, Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik Azərbaycan və Ermənistan prezidentləri arasında tezliklə növbəti görüşün baş tutmasına can atır. ABŞ-ın Bakıdakı səfiri Robert Sekuta da iki gün öncə bildirib ki, tezliklə həmsədrlər regiona gələcəklər və əsas məqsəd də prezidentlərin görüşünə nail olmaqdır.

***

Bəs görüş tezliklə reallaşacaqmı? Ümumiyyətlə, qarşıdakı bir neçə ayda Qarabağ məsələsi ətrafında situasiya hansı istiqamətə dəyişə bilər, Rusiyanın bu xüsusda yeni planları nədən ibarət ola bilər? Yəqin ki, önümüzdəki həftələrdə bu suallara əsaslı şəkildə aydınlıq gələcək.



# Riqada Qarabağ müzakirələri

**İyulun 3-də Azərbaycanın müdafiə naziri Zakir Həsənovun Latviyaya rəsmi səfəri başlayıb. Z.Həsənov iyulun 8-dən Latviya prezidenti vəzifələrinin icrasına başlayacaq hazırkı müdafiə naziri Raymonds Veyonis ilə görüşüb.**

Rəsmi qarşılanma mərasimində protokola uyğun olaraq müdafiə nazirləri fəxri qarovulun önündən keçiblər. Sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş keçirilib. Görüşdə regional təhlükəsizlik, silahlı qüvvələrin inkişafı və ölkələrimiz arasında hərbi əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə edilib, bütün sahələrdə, o cümlədən hərbi sahədə əməkdaşlığa böyük əhəmiyyət verildiyi vurğulanıb.

"Bizim ikitərəfli əməkdaşlıq sahəsində yaxşı təcrübəmiz mövcuddur. Müdafiə sahəsində əməkdaşlığımızın genişləndirilməsi qarşılıqlı surətdə silahlı qüvvələrimizin möhkəmlənməsinə kömək edəcək" - deyə Z.Həsənov bildirib. Cənab Veyonis öz növbəsində Latviyanın hər zaman Azərbaycanın ərazi bütövlüyünü tanıdığını, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi çərçivəsində həllinin tərəfdarı olduğunu xüsusi qeyd edib.

Sonra Cənubi Qafqaz regionunda hərbi-siyasi vəziyyət, Ermənistan-Azərbaycan münaqişəsi, azərbaycanlı qaçqın və məcburi köçkünlərin durumu, Azərbaycanla Latviya arasında qarşılıqlı maraq doğuran digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 144 (6172) 4 iyul 2015

# Halal olmayan yemlə bəslənən heyvanların əti halal sayılmayacaq

## Standartlaşdırma Komitəsinin halal elan etdiyi qidalar cibimizə uyğundurmu?

**Standartlaşdırma, Metrologiya və Patent Komitəsi halal və halal olmayan qidaların siyahısını açıqlayıb. Standartlaşdırma, Metrologiya və Patent Komitəsinin qərarı ilə təsdiqlənən və iyunun 24-dən qüvvəyə minən "Halal qida. Ümumi rəhbər edici sənəd" dövlət standartında əksini tapıb.**















Belə ki, Allahın adı anılmadan kəsilmiş heyvanlar, bilərəkdən və davamlı olaraq halal olmayan yemlə bəslənən ferma heyvanları halal sayılmayacaq. Mal, öküz, qoyun, keçi, dəvə, toyuq, qaz, ördək və hind toyuğu əhliləşdirilmiş heyvanlar, maral, antilop, dağ keçisi, mal və bunlar kimi yırtıcı olmayan vəhşi heyvanlar, göyərçin, sərçə, bildirçin, sığırçın və dəvəquşu kimi yırtıcı olmayan quşlar halaldır. Eyni zamanda bu heyvanlardan əldə edilən süd və süd məhsulları, yumurta və yumurta məhsulları halaldır.

Halal olmayan heyvanlara isə donuz, it və oxşar növlər, Allahın adı anılmadan kəsilmiş heyvanlar, İslam qaydalarına zidd olaraq kəsilmiş heyvanlar, öz-özünə ölmüş heyvanlar, ovunu öldürmək və ya özünü müdafiə etmək üçün öndə buynuzu və ya uzun iti dişləri olan ayı, fil, meymun, qurd, aslan, pələng, bəbir, pişik, çaqqal, tülkü, sincab, kaftar, köstəbək, dələ, Amerika timsahı və timsah kimi heyvanlar, qırğı, şahin, qartal, kərkəs, quzğun, qarğa, çalağan, bayquş kimi iti pəncələri olan yırtıcı quşlar, siçovul, çayan, əqrəb, ilan, vəhşi arılar, siçan və buna bənzər həşəratlar və zəhərli heyvanlar, kərtənkələ, ilbiz, böcək, sürfələr və oxşar iyrənc heyvanlar, İslamda öldürülməsi qadağan olunan bal arısı və şanapipik kimi heyvanlar, uzunqulaq və qatırlar, bilərəkdən və davamlı olaraq halal olmayan yemlə bəslənən ferma heyvanları daxildir. Halal olmayan heyvanlardan əldə edilən hər hansı məhsullar da halal sayılmır. Su heyvanlarına gəlincə, pulcuqlu balıq növləri, krevet *(xırda dəniz xərçəngi)* və pulcuqlu balıqların kürüləri və onların məhsulları halaldır. Balıq kimi kəsilməsinə ehtiyac olmayan heyvanlardan əldə edilən kürülər istehlak üçün təhlükəsiz olduğu halda halaldır. Sağlamlığa zərərli bütün zəhərli su heyvanları halal sayılmır. Zəhərli və zərərli hissələri çıxarıldığı halda halaldır. Bütün amfibiyalar halal sayılmır. Zəhərli və zərərli bitkilərdən başqa bütün bitkilər və onların məhsulları da halaldır. Zəhərli və zərərli bitkilərin zəhərli və zərərli hissələri çıxarıldığı halda halaldır. İnsan və heyvan mənşəli qan və digər maddələrə gəlincə, hər növ qan və məhsulları halal sayılmır. Sidik, ətənə, peyin, qusuntu, irin, məni (sperma) insanlardan və heyvanların bədən dəliklərindən çıxan yumurta kimi hər növ çirkli maddələr, insan bədəninin hər hansı hissəsinin istehlakı halal sayılmır. Bundan əlavə, qursaq mayası və jelatin kimi qida əlavələri halal olmayan məhsullardan emal edilməməlidir. Taxıl və taxıl məhsulları, bitki və heyvan mənşəli piylər və duru yağlar, meyvə-tərəvəzlər və ondan hazırlanan məhsullar, qənd və qənnadı məmulatlar halal əməliyyatlardan istifadə edilərək halal mənşəli maddələrdən emal edilməlidir. Zəhərli, bihuş edən və ya zərərli içkilərdən başqa hər növ su və spirtsiz içki halaldır.

Spirti özündə birləşdirən hər növ məhsul və ya içki, bişirmə məqsədli ya da şirniyyat qatışığı olaraq istifadə edilməsi belə İslam qaydalarına görə qadağandır. İçkilərdə boyayıcı və qoruyucu kimi istifadə edilən qida əlavəli maddələri qidada istifadəyə uyğun olmayan və halal olmayan tərkiblərdən emal edilməməlidir. Arıların bitkilərdən yığaraq ifraz etdikləri və insan sağlamlığına zərərli olmayan arıçılıq məmulatları (bal, arı şanı, arı südü) halaldır. Balın içindən çıxan bal arısının hissələri və qarşısı alınmayan digər parçalar halal olaraq xarakterizə edilir. Standartda qida gücləndiricilərindən də bəhs olunur. Qida gücləndiriciləri bitki və heyvanlar kimi halal qaynaqlardan emal edilməli və halal olmayan komponenti özündə birləşdirməməlidir. Halal yeyinti məhsullarının istehsalında genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarının istifadəsi qadağandır. Qida qatqı maddələri də qida olaraq qəbul edilir. Halal olmayan tərkiblə hazırlanmış qida əlavələri halal sayılmır. Xammal, emala kömək edən maddələr və ya son məhsul olaraq istifadə edilən fermentlər halal qaynaqlardan əldə edilməli və etiket məlumatlarında qeyd edilməlidir. İnsan sağlamlığı baxımından zəhərli və ya zərərli (insanlar üçün patogen və toksiki) olanlardan başqa bakteriya, göbələk, maya kimi mikroorqanizmlər halaldır. Qida və ya qida emalında istifadə edilən mikroorqanizmlər halal mühitdə istifadə olunaraq istehsal edilməlidir. Mayanın çıxarışı və ya bunlardan əldə edilən digər məhsullar üçün pivə mayası istifadə edilməməlidir.

Maraqlıdır, Standartlaşdırma, Metrologiya və Patent Komitəsinin siyahısını hazırladığı bu halal nemətlər bütün ailələrin büdcəsinə uyğundurmu?

Bunu öyrənmək üçün bir neçə marketə baş çəkib adı sadalanan halal nemətlərin qiymətləri ilə maraqlandıq. Adıçəkilən halal balıqların, kürülərin, bildirçin yumurtalarının qiyməti "əl yandırırdı". Mağazada əsl kürülərin qiyməti balığın növündən asılı olaraq 50 qramı 11 manatdan 100 manatadək dəyişirdi. Balıqlara gəlincəb növündən asılı olaraq qiymətləri 3 manatdan 20 manatadək satılır. Quzu ətinin qiyməti 10 manat 40 qəpikdən 14 manatadək, can ətinin filesi 6 manata satılırdı. Toyuq ətinin qiyməti isə çəkisindən asılı olaraq 3 manat 80 qəpikdən başlayır. Toyuq yumurtası 10 qəpiyə, bildirçin yumurtası isə 15 qəpiyə satılır. Bildirçin ətinə isə satışda rast gəlmədik. Digər halal nemət sayılan göbələyin qiyməti 1 manat 86 qəpik - 3 manat 79 qəpik arasında idi. Balların qiyməti isə 4 manat 20 qəpik və 15 manat arası satılırdı. Hinduşka əti də 6-8 manata satılırdı.

**Halal nemət sayılan qidaların nə dərəcədə cibimizə uyğun olduğunu isə yəqin ki, deməyə əsas yoxdur.**

**❑ Günel MANAFLI**
**Fotolar müəllifindir**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar** və **ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Elan

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 185 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-40.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (050) 210-50-74**

**Özəl tibb müəssisəsinə 3-5 saata gündə işləmək üçün təqaüddə olan, damara iynə vura bilən tibb bacısı tələb olunur.**

**Tel: (012) 437-88-05 (13:00-dan sonra)**
**(050) 213-88-05 (13:00-dan sonra 17:00-dək)**

**Oğuz rayonunun Calut kəndində "Azpetrol"la üzbəüz dağın ətəyində 4 hektar özəl sahədə yerləşən ferma satılır. İşərisində çoban evi, ofisi, yem dəyirmanı, istirahət guşəsi, daimi işığı və suyu var. Əlavə olaraq 5 hektar özəl torpaq sahəsi və bundan başqa müqavilə ilə 6 hektar biçin sahəsi və 126 hektar otlaq sahəsi var. Bunların hamısı birlikdə 450 min manat.**

**Əlaqə nömrəsi:**
**(055) 206-14-61,**
**(070) 335-90-15,**
**(050) 371-01-60**



## Dünyaca məşhur olan Qırğızıstan balı və müalicəvi bal məhsulları Azərbaycanda

- *Arı südü*
- *Mumiya*
- *Möhtəşəm ağ bal*
- *İssık-Kul balı*
- *Esparset balı*
- *Çayek balı*
- *Karkıra balı və s.*

**RAMAZAN AYI İLƏ ƏLAQƏDAR OLARAQ ORUC TUTANLARA ENDİRİM**

**Xalisi yalnız bu ünvanda:** Bakı şəhəri, Neftçi Qurban küçəsi 119
**Tel:** (012) 491-23-82; (051) 922-15-71



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 144 (6172) 4 iyul 2015





# Bodrumda istirahət Nabrandan ucuz başa gəlir

## Qiymətlər, ilginc müqayisələr və acı reallıq...

**Elə gün olmur ki, sosial şəbəkəni açan kimi turizm agentliklərinin "yanan turlar", "son fürsət", "inanılmaz kampaniya" başlıqları ilə tur təklifləri ilə qarşılaşmayaq. Məlum, Azərbaycan insanının istirahət anlayışı son 10 ildə Türkiyə istiqamətində daha çox formalaşıb. "Full paket", yəni hər şey daxil istirahət paketləri azərbaycanlı ailələr üçün olduqca rahatdır. Bakıdan uçuş, hotelə çatdırılma, gündə 3 (bəzilərində 5 dəfə) yemək, limitsiz əyləncə, diskoteka və sair və ilaxır...**

Amma Bakıdan uçuş qiymətləri həddən artıq yüksək olduğu üçün azərbaycanlılar iki ildir "Tiflisdən uçuşla" başlıqlı turpaketlərə maraq göstərir. Bu haqda "Yeni Müsavat" bir neçə dəfə yazdığı üçün üzərində xüsusi dayanmaq istəmirik. Amma budəfəki yazımızda sizi maraqlı daxili və xarici tur müqayisəsi ilə tanış edəcəyik.

Məlumdur ki, indi daha ucuz və yaxın məsafəli olması üçün insanlar zaman-zaman ölkə daxilindəki istirahət mərkəzlərinə də müraciət edir. Bu mərkəzlərin başında isə heç şübhəsiz ki, dənizinə və təbiətinə görə Nabranın adı gəlir. Nabranda sayı gündən-günə artan istirahət mərkəzlərindəki qiymətlər isə gerçəkdən də Bodrumla, Antalya, Marmarislə müqayisə olunacaq həddə çatıb. Nəzərə alanda ki, sonuncuların turpaketindəki qiymətin 70 faizini bilet qiymətləri təşkil edir.

Nabranda istirahət söz birləşməsinin altında bir çox detallar var. Yəni bu istirahəti günü 10 manata da başa gətirmək olar, günü 100 manata da. Ona görə də biz sizə bir çox seçimləri təqdim edəcəyik. Məsələn, başlayaq ən ucuzundan. Nabrandakı bir çox istirahət mərkəzlərində, xüsusən də sovet dövründən tikilmiş, insanların daha çox putyovka vasitəsilə gəldiyi istirahət mərkəzlərində yerli işbazlar otaqları ucuz qiymətə kirayəyə verir. Bu tip yerlərdə adambaşına 6-7 manata olan otaqlar var. Amma tam şəraitsiz və təbii ki, yemək servisi olmadan. Quru çarpayı və dörd divar. Evindən yemək, qaz plitəsi, ərzaq gətirənlər... 3 dəfə yemək ehtiyaclarını bu cür ödəyə bilirlər. Amma sutkası 15-20 manatdan başlanan kotteclər var ki, orda şərait nisbətən normal sayılır: hamam-ayaqyolu, fasiləsiz su... Burada da yemək məsələsi ailənin öz öhdəsindədir. İstəyənlər üçün Nabrandakı bəzi ev sahibləri öz evlərini gündəlik 20-25 manata kirayə verir, təbii ki, içindəki bütün əşyaları ilə. Bu halda 10 gün istirahət etmək istəyən vətəndaş minimum 200 manat ev kirayəsinə verir.

### "Atlant"da bir nəfərin bir günlük istirahəti 87 manata başa gəlir

İstirahət mərkəzlərində isə vəziyyət qəlizdir. Əməkdaşımız «Atlant» İstirahət Mərkəzinin 2015-ci il qiymətləri ilə maraqlanıb. Məlum olub ki, burada bir nəfərin 3 dəfə yemək daxil olmaqla bir günlük istirahəti 50 manata başa gəlir. Təbii ki, əgər bu şəxs təkbaşına bir otaq məşğul etməyəcəksə. Bu haqda detallı aşağıda.

5 yaşa qədər uşaqlar pulsuz, 5 yaşdan böyüklər isə qeyd olunmuş tariflə, yəni 50 manat ödəməklə istirahət edə bilər. 1 və 2 nəfərlik otaqlar var. 4 nəfərə 2 otaq təqdim edilir.

Amma burda ən maraqlısı bir nəfərin "Atlant" macərasında başına gələ biləcəkləridir. Əgər kimsə təkbaşına burda istirahət etmək istəsə, şərtlərin heç biri ona tətbiq olunmur. Bu halda o, təkcə otaq üçün 65 manat ödəməlidir, 3 dəfə yemək isə bu məbləğə daxil deyil. İstirahət mərkəzindəki yeməklərin məbləği isə aşağıdakı kimidir: səhər yeməyi 6 manat, nahar - 8 manat, şam yeməyi - 8 manat. Yəni bir günlük yemək məsrəfi 22 manat edir. Bunun üstünə otaqda gecələməni də əlavə etsək, ümumi məbləğ 87 manatdır. Yəni bir günlük «Atlant» istirahəti təkbaşına gələn adama 87 manata başa gəlir. Bu istirahətin 7 günlük planlaşdırıldığını nəzərə alsaq, ümumi məbləğ 609 manatdır. Nəzərə almalıyıq ki, bura nəqliyyat xərcləri daxil deyil.

Keçək "Caspi" İstirahət Mərkəzinə. Burada da bir nəfərə günü 30 manat olmaqla kottеclər təklif edir. Qiymətə gündə 3 dəfə yemək və diskoteka daxildir.

Adı daha çox hallanan "Palma" İstirahət Mərkəzində isə vəziyyət "yevropeyski"dir. Dəqiqləşdirmələrimizə görə, burada adambaşı bir günlük istirahət 35 manatdır. Bu qiymətə ancaq səhər yeməyi daxildir. Adambaşı 55 manatlıq istirahət qiymətinə isə gündə 3 dəfə yemək daxildir.

Nabranda "Caspian sea" istirahət mərkəzində adi nömrədə 1 nəfər üçün 1 günlük istirahət 280, lüks şəraitli VİP nömrələrdə isə 1000-1500 manatdır.

Xaçmazda yerləşən "Çoban bulaq" İstirahət Mərkəzindən öyrənirik ki, burada 1 günlük istirahət 60 və 80 manata təklif olunur. Mərkəzdən bildirdilər ki, qiymət fərqi otaqların genişliyinə görədir. Bu qiymətlərə yemək daxil deyil. Mərkəzin lüks otaqları 2 nəfər üçün 150 manat, 4 nəfər üçün 250 manatdır. Bu qiymətlərə səhər yeməyi daxildir.

### Antalyada 1 həftə 550 manata da istirahət etmək olar

İndi keçək Türkiyə turlarına. Yerli turizm agentlikləri arasında apardığımız reydlər nəticəsində qiymətləri aşağı-yuxarı müəyyənləşdirmək mümkün oldu. Məsələn, agentliklərdən birində "qaynar tur" başlığı ilə diqqətimizi çəkən elanı paylaşaq.

Antalya-Kəmərdə 13 gecə istirahət, hər şey daxil olmaqla 347 manat məbləğindədir. Uçuşlaq Tiflisdəndir.

"Fly Travel" agentliyi də maraqlı turlar elan edib. Qiymətlərə diqqət:

«Munamar Beach Residence» hotel (5 ulduzlu) Marmarisdə yerləşir. 2 nəfər, 7 gecə 8 gün boyunca istirahət üçün 990 manat ödəməlidir. Uçuş Bakıdandır və paketə hər şey daxildir.

«Pine Bay Holiday Resort Hotel» (5 ulduzlu) Quşadasında yerləşir. 7 gece her shey daxil olmaq şərtilə turpaketin qiyməti 2699 manatdır və uçuş Tiflisdəndir.

Bordrumda yerləşən «Green Beach Resort» hotelində də 2 nəfərin 7 gecə, 8 gün istirahət qiyməti 998 manat təşkil edir. Uçuş Bakıdandır və turpaketə hər şey daxildir.

Quşadasında yerləşən 5 ulduzlu «Grand Belish Hotel»də isə 7 gece 8 gun boyunca 1 nəfərin istirahəti 880 manatdır. Qiymətə billet, transfer, 5 dəfə yemək və sığorta daxildir. Uçuş Tiflisdəndir və 2 nəfərlik otaqda 1 nəfərin qalması üçün nəzərdə tutulub.

Antalya qiymətləri isə daha ucuzdur.

«Belle Vue Hotel Beldibi» 3550 azn

«Kemer Millennium Palace» 4644 azn

«Nox Inn Beach Resort & SPA» 5919 azn

Qiymətə daxildir: 2 nəfər, 7 gecə, 8 gün. Uçuş Tiflisdəndir, paketə gündə 3 dəfə yemək və sığorta daxildir.

### Macəraçıların seçimi - avtobus turları: daha ucuz və ilginc

Amma macəra sevənlər üçün ilginc avtobus turları da var. Turizm agentlikləri arasında gəzişmə zamanı onların tariflərinə də rast gəldik.

**1.Bodrum avtobus turu**

18.07.2015 - 29.07.2015 - (12 gün / 7 gecə) 469 AZN

**2. Bodrum avtobus turu**

01.08.2015 - 12.08.2015 - (12 gün / 7 gecə) 509 AZN

**3. Bodrum avtobus turu**

18.08.2015 - 29.08.2015 - (12 gün / 7 gecə) 479 AZN

**Qiymətə daxildir:**

- Komfortlu Avtobus - MERCEDES TRAVEGO
- Avtobusda çay, kofe, sərinləşdirici içkilər
- 8 Gün / 7 Gecə Otel
- Gündə 5 dəfə yemək (ALL)
- Tur Rəhbəri (bütün yolboyu)
- Səyahət sığortası

ƏLAVƏ MƏLUMAT:

Avtobus MERCEDES TRAVEGO olacaq

Turist Antalyanın Kəmər regionunda siyahıda olmayan hotel seçə bilər.

YERLƏŞMƏ NÖVÜ:

DBL - Standard otaqda 2 nəfərlik

SNG - Standard otaqda 1 nəfərlik

TRP - Standard otaqda 3 nəfərlik

Qiymətlər yerləşmə növünə görə 1 nəfər üçün nəzərdə tutulub.

QİDALANMA NÖVÜ:

ALL - Gündə 5 yemək + yerli spritli və spirtsiz içkilər.

UALL - Gündə 5 yemək + yerli və xarici spritli və spirtsiz içkilər.

Sonda... Bütün bu hesablamalar, araşdırma və müqayisələr göstərir ki, istirahət seçimi ciddi prosesdir. Ailənin bütün üzvlərinə rahat, onun başçısına isə sərfəli olması üçün seçimlər arasından seçim bəyənmək lazımdır. Məqsəd sonda peşman olmamaq və yaddaşda gözəl izlər qoyan istirahət seçimini əldə etməkdir. Seçimlər isə göz qabağında. Antalya yerli turistlərə Nabrandakından daha sərfəli təkliflər verir.

❑ **Sevìnc TELMANQIZI**

# "Atletlər kəndi"ndəki qəza ilə bağlı yeni xəbər

## Olayı törədən sürücü qəsdən adam öldürməyə görə həbsdə olub?



**I Avropa Oyunları başlamamışdan öncə "Atletlər kəndi"ndə baş vermiş xoşagəlməz olayın - avtobusun 3 atletin üzərindən keçməsində günahlandırılan "Bakubus"un sürücüsü Vəli Əhmədov elə həmin gün həbs edildi. Belə məlumat da var ki, V.Əhmədov əvvəllər qəsdən adam öldürməyə görə həbsdə olub. Barəsində məhkəmə tərəfindən 10 illik azadlıqdan məhrumetmə cəzası çıxarılıb. Bu müddətin bitməsinə 5 il qalmış V.Əhmədov məhkəmə qərarı ilə azad olunub. İstintaq V.Əhmədovun "Bakubus"a işə götürülməsinin detallarını da araşdırır.**

Həbs olunan V.Əhmədovun oğlu Orxan Əhmədov qəzadan sonra mir.az-a açıqlama verərək deyib ki, atasının qəzanı qəsdən törətməsi haqda məlumatlar yalandır. Atasının idarə etdiyi avtobusun əyləc sistemində problem üzündən belə bir qəza meydana gəlib. "Avtobusun əyləc sistemində problem olub və sürücü problemi aradan qaldırmağa çalışarkən diqqəti yoldan yayınıb. Sükanı yığışdırmaq mümkün olmadığından avtobusu saxlaya bilməyib və nəticədə qəza baş verib" deyə, sürücünün oğlu bildirmişdi.

Əgər sürücü oğlunun dedikləri düzdürsə, bütün məsuliyyət həmin avtobusları ölkəyə gətirən və texniki yoxlamadan keçirən şirkətin üzərinə düşür. Həmçinin istehsalçının məsuliyyət məsələsi də gündəmə gəlir. Bütün bunlar istintaqın aydınlıq gətirməli olduğu məsələlərdir. İş üzrə istintaqın nə yerdə olduğunu öyrənmək üçün DİN və Baş Prokurorluğun mətbuat xidmətləri ilə əlaqə saxladıq. Hər 2 qurumun mətbuat xidmətindən hər hansı bir açıqlama verilmədi.

Yada salaq ki, iyunun 11-də baş vermiş olayla bağlı Daxili İşlər Nazirliyi və Baş Prokurorluğun mətbuat xidmətlərinin birgə məlumatda qeyd olunurdu ki, 2015-ci il iyun ayının 11-də, saat 8.30-da, I Avropa Oyunlarının "Atletlər kəndi"nin nəqliyyat deposunda, "Bakubus" Məhdud Məsuliyyətli Cəmiyyətə məxsus avtobus hərəkət zolağından çıxaraq piyadalar üçün səki ilə gedən Avstriyanın sinxron üzgüçülük üzrə yığma komandasının üzvləri Vanessa Sahinoviçə və Luna Pacerə bədən xəsarətləri yetirib. Adları çəkilən idmançılar dərhal xəstəxanaya yerləşdirilərək onlara bütün zəruri tibbi yardımlar göstərilib, sonradan isə müalicələrini davam etdirmələri üçün Azərbaycan hökuməti tərəfindən Vyana şəhərinə göndərilmələri təmin edilib. Fakt üzrə Cinayət Məcəlləsinin 263.1-1-ci maddəsi (ehtiyatsızlıqdan zərər çəkmiş şəxsin sağlamlığına ağır zərər vurmaqla yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma) ilə cinayət işi başlanıb.

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
Son səhifə
N 144 (6172) 4 iyul 2015

# Gec yaşda ana olan qadınlar daha çox yaşayır



Alimlər insanların həyatları ilə bağlı maraqlı məqamı ortaya çıxarıblar. Sən demə, gec ana olmuş qadınlar daha çox ömür sürürlər. Adətən cəmiyyətdə gec ana olmağın mənfi cəhətləri müzakirə olunur, ancaq alimlərin ortaya çıxardıqları məlumat bütün bu "mənfilərin" üzərindən xətt çəkib. Rusiya mətbuatının məlumatına görə, ekspertlər iddia edirlər ki, 33-37 yaşlarında ana olan qadınların uzun ömür yaşamaq şansı daha çoxdur. Danimarkalı alimlərin araşdırmasında 4800 nəfər iştirak edib. Alimlər uzun ömürlülüyün dəqiq səbəbini izah edə bilməyiblər. Amma ehtimal edilir ki, gec ana olmuş qadınların sağlamlıqları daha yüksəkdir.



## Yeniyetmələr üçün 2 milyon dollarlıq ad günü

Dörd lüks kurorta sahib olan Meksikanın turizm şirkəti "Velas Resorts" yeniyetmələr üçün 2 milyon dollar məbləğində ad günü tədbirləri keçirməyi planlaşdırır. Bu pula hotellərdən birində müştəri və onun 10 dostu üçün iki prezident nömrəsində 3 gecə boyunca ad günü mərasimi təşkil olunacaq. Qonaqlar həmçinin fərqli səhər yeməyinə qonaq ediləcək. Yeniyetmələri şəxsi təyyarə ilə Meksika, Kanada və ABŞ-ın istənilən nöqtəsindən kurorta çatdırmaq nəzərdə tutulub. Təyyarədən düşən kimi qonaqlara içində yeməli qızıl olan meyvəli dondurma və "Apple iWatch" saatları təqdim ediləcək. Paketə həmçinin SPA xidmətlər, məşhur meksikalı dizayner Pinedi Kovalinanın hazırladığı kostyum daxildir. Bundan başqa, qonaqlar yuvelir əşyaları da pulsuz kirayələyə biləcəklər. Mərasimin səs-küylü hissəsi isə axşam saatlarında, çimərlikdə 300 qonağın iştirakı ilə baş tutacaq. Qonaqlar üçün amerikalı pop ulduzlardan biri oxuyacaq. Ölkənin məşhur barmenlərindən biri alkoqolsuz kokteyl hazırlayacaq.

# Pizzaçılar artıq İtaliyada pizza satmaq istəmir



Pizza deyilən kimi ağla gələn ilk ölkə olan İtaliya artıq pitsa şəbəkələrinin tərcihi sırasında deyil. Aparılan bir araşdırmaya görə, iri pizza firmaları artıq İtaliyada şöbə açmağa tərəddüd edir. Buna səbəb İtaliyanın pis ölkə olması deyil. Sadəcə, iş adamları hesab edirlər ki, pizzanın vətənində yeni pizza restoranı açmaq perspektiv vəd etmir. Onun əvəzində inkişaf etməkdə olan ölkələri tərcih etmək gəlirli ola bilər. ABŞ-ın ən böyük pizza şəbəkəsi olan Pizza Hutdan isə bildiriblər ki, İtaliya onların qlobal marka keçmişinə uyğun gəlmir. İtaliyada pizza bazarı keçən il ABŞ-ı ötsə də, son beş ildə göstəricilər dəyişib. Belə ki, 2008-2013-cü illərdə ABŞ-da pizza bazarı 3 faiz artıb və illik qazanc 37.5 milyard dollara çatıb. Bunun əvəzində isə İtaliyada satışlar 10 faiz azalıb. Bununla belə, adambaşına düşən pizza xərclərinə görə italyanlar amerikanları ötüb. İtalyanlar keçən il pizza restoranlarında adambaşına 457 dollar xərclədikləri halda, ABŞ-da bu rəqəm 119 dollar olub.

## Dünyada yeni dəb - kişilər arvadlarının familiyasını götürür



Artıq dünya miqyasında yeni bir dəb var. Evləndikdən sonra kişilər həyat yoldaşlarının soyadını götürürlər. Amerikalı ulduz Zoe Saldananın həyat yoldaşı Marko evləndikdən sonra həyat yoldaşının familiyasını götürsə də, bunun ucbatından sosial şəbəkədə ciddi etirazlarla qarşılaşdı. Maraqlı fakt isə odur ki, Türkiyədə qadınlar qızlıq soyadlarından istifadə etmək üçün bəzən həyat yoldaşlarını məhkəməyə verirlər. Onlar bu halda subay vaxtkı soyadlarından istifadə etmə haqqını əldə etsələr də, qanunlar hazırda qadına ancaq öz həyat yoldaşının soyadından istifadə etməyi şərt qoşur.



## Ən çox televizora baxan xalq... onlardır

İngiltərənin "Daily Mail" internet portalının məlumatına əsasən, Bolqarıstan əhalisinin 43 faizi hər gün televizor qabağında orta hesabla üç saat vaxt keçirir. Bu rəqəm Avropada televizordan asılı adamların ən çox məhz Bolqarıstanda olduğunu sübut edir.

Lenta.ru saytının xəbərinə görə, araşdırma "European Social Survey" təşkilatı tərəfindən Avropanın 30 ölkəsində aparılıb. Bolqarıstandan sonra ikinci yerdə Böyük Britaniya, üçüncü yerdə isə İrlandiyadır. Avropada televizordan asılı olan adamların orta sayı 21 faizə bərabərdir.

Alimlərin son araşdırmasına görə, hər gün televizora altı saat baxan adamların ömrü 5 il azalır.




**QOÇ** - Başqalarının şəxsi işinə qarışmaq, dedi-qoduya əhəmiyyət vermək, riskli pul yatırımları etmək sizi təhlükəyə ata bilər. Ulduzlar fəaliyyətdə və ünsiyyətdə hər şeyin ürəyinizcə olacağını bildirir.

**BUĞA** - İxtiyarınızda olan bu gözəl təqvimdə falçı və ya cadugərlərə üz tutmaqdansa Allaha xoş gedən addımlar atın. Ulduzlar bu gün maddi irəliləyişlə bahəm, maraqlı tanışlıqlardan da xəbər verir.

**ƏKİZLƏR** - Əsas gücünüzü sevgi amilinə yönəldin. Çünki qarşı tərəflə aranızda ciddi anlaşılmazlıqlar var. Ulduzlar səmimi və mehriban olmağı tövsiyə edir. Uzaq səfərə hazırlaşmağa dəyər.

**XƏRÇƏNG** - Göy qübbəsi nahara qədər müəyyən gərginliklə üzləşəcəyinizi bildirir. Yaxşı olar ki, həmin vaxt təmkin göstərib adi işlərlə məşğul olasınız. Sonrakı ərəfə isə çox uğurludur.

**ŞİR** - Ailə-sevgi münasibətlərində olan gərginlik tədricən qaydasına düşəcək. Artıq ünsiyyətdə olduğunuz hər kəs sizi anlamağa başlayacaq. Fəaliyyət zəminində riskli və təhlükəli addım atmayın.

**QIZ** - Müqəddəs Ramazandan nurlanan bu təqvimdə bacardığınız qədər savab işlər görün. Ətrafınızda olanların rəğbətini qazanmaq gün ərzində başlıca vəzifənizə çevrilməlidir. Hər hansı səfər uğurlu deyil.

**TƏRƏZİ** - Yarımçıq işlərinizi yekunlaşdırmaq üçün daxili potensialınız artacaq. Bu istiqamətdə sizə dəstək verənlər də olacaq. Heç də hamıya şübhə ilə yanaşmayın. Şəxsi büdcənizi qoruyun.

**ƏQRƏB** - İradənizə hakim kəsilib dinə zidd hərəkətlərə yol verməyin. Bununla siz ürəyinizdə olan saf arzularınızın gerçəkləşməsini sürətləndirə bilərsiniz. Nahardan sonra səfərə çıxmaq olar.

**OXATAN** - Fəaliyyət müstəvisində çox uğurlu vaxtdır. Aldığınız hər bir təklifə müsbət yanaşın. Bütün mənbələr maddi durumunuzda irəliləyişlər olacağını göstərir. Münasibətlərə fikir verin.

**OĞLAQ** - Proqnozlara görə bu gün hava çox isti olacaq. Bu səbəbdən də günün ilk yarısını daha çox istirahətə həsr etməlisiniz. Sonrakı müddətdə isə iyul planlarınızı bir daha götür-qoy edin.

**SUTÖKƏN** - Xarakterinizə münasib olmayan mənfi enerjili Ay bürcünüzdə qərar tutsa da, bu gün sizə əlavə enerji verəcək. İstənilən söhbətdə ədalət prinsiplərini qoruyun. Axşama doğru şübhəli qidalardan qaçın.

**BALIQLAR** - Yaxşı olar ki, bu gün kiməsə yalan vədlər verməyəsiniz. Günün ikinci yarısında sizə ehtiyacı olan yaxınlarınıza baş çəkməyə çalışın. Büdcənizdə artım da gözlənilir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## "Mesajın atası" öldü



SMS-in yaradıcısı olaraq qəbul edilən Matti Makkonen iyulun 3-də 63 yaşında dünyasını dəyişib. Xatırladaq ki, dünyada ilk dəfə olaraq mesaj sistemi 1985-ci ildə tətbiq edilməyə başlanıb. Qısa mesajın fikir atası olaraq tanınan M.Makkonen bu kəşfinə görə patent ala bilmədiyi üçün heç bir gəlir də əldə edə bilməyib. Ancaq Makkonenin bu fikri olmasaydı, bəlkə SMS adlanan qısa mesaj dönəmi uzun illər sonra həyatımıza girəcəkdi.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300